# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Müasir dünyada geosiyasi vəziyyət və dünya səhnəsində dövlətlərin gücləri nisbəti kəskin dəyişir. Dünyanın ideoloji meyarlara görə iki düşərgəyə bölündüyü dövrdə mövcüd olan ikiqütblü dünya sosialist sisteminin və bu düşərgəyə başçılıq edən Sovet İttifaqının dağılmasından sonra hansısa bir zaman dövründə birqütblü dünyaya çevrildi. Bu dünyanın yeganə super dövləti olan ABŞ-nın iqtisadi, hərbi və siyasi qüvvəsinin artması ilə bağlı idi. Z. Bjezinskiy özünün məhşur "Böyük şahmat lövhəsi" adlı əsərində qeyd edir ki: "*ABŞ elə bir siyasi təsirə malikdir ki, dünyanın heç bir dövləti ona heç yaxın belı deyil*".[1] Hazırki dövrdə isə müşahidə olunan beynəlxalq münasibətlər sistemində ABŞ-nın rolunun davamlı və daima azalması və bununla yanaşı digər dövlətlərin və ya onların ittifaqının təsirinin artması tendensiyasına görə bir çox siyasətçilər, beynəlxalq münasibətlər üzrə mütəxəssislər və politoloqlar artıq dünyanın çoxqütblüyündən danışır.[2] Nəzərə almaq lazımdır ki, müasir dünyada heç bir dövlət artıq dünya siyasətində hakim mövqeyə malik deyil və bir çox yaranan problemlərin həlli həm bütövlükdə dünyada, həm də onun ayrı-ayrı regionlarında dövlətlərin geosiyasi qüvvələrinin konkret nisbətindən asılıdır. Bu hallar beynəlxalq münasibətləri tənzimləyən beynəlxalq hüquq sistemində, onun institutlarının və prinsiplərinin səmərəliyində, və buna müvafiq, beynəlxalq hüquq doktrinasında öz əksini tapmaya bilməz.

Tamamilə aydındır ki, beynəlxalq münasibətlər sistemində bu və ya digər münaqişələrin beynəlxalq hüquqi tənzimlənməsində bütövlükdə dünyada geosiyasi qüvvələrin konkret nisbəti vacib amil təşkil edir. Bununla bərabər, şübhəsiz ki, beynəlxalq hüquqa əsaslanan hər hansı bir dövlətin, o cümlədən dünya siyasətində

---

[1] Бжезинский, З. Великая шахматная доска / З. Бжезинский. - М.: «Международные отношения», - 1999, - с. 12

[2] Дугин, А.Г. Международные отношения. Парадигмы, теории, социология: Учебное пособие для вузов / А.Г. Дугин. - Москва: Академический Проект, - 2013. - с. 220-232

aparıcı rol oynayan dövlətlərin xarici siyasət fəaliyyəti, təkcə müəyyən hüquqi yox, həm də siyasi və mənəvi üstünlüklərə malik olur, daha az maneələrlə qarşılaşır, və buna görə beynəlxalq hüquq normalarını pozan dövlətlərin hüquqazidd fəaliyyətindən daha səmərəlidir.

Bu səbəbdən heç bir dövlət birbaşa beynəlxalq hüquqa qarşı çıxış etmir. Düzdür, tez-tez beynəlxalq hüququn bu və ya digər müddəaları təkçə müəyyən dövlətlər üçün onların siyasi və iqtisadi maraqlarının həyata keçirilməsi üçün bəhanədir. Lakin bir dövlətin digərinin suverenliyinə qarşı bu və ya digər hərəkətlərinin edilməsi üçün beynəlxalq hüquqi əsasların və "üzrlü səbəbin" olmaması belə hərəkətlərin edilməsi ehtimalını, çox guman ki, azaldır. Qloballaşma, dövlətlərin qarşılıqlı bağlılığı şəraitlərində hər bir dövlətin tam dəyərli mövcüdluğunu beynəlxalq hüququn digər subyektləri ilə qarşılıqlı fəaliyyəti olmadan və beynəlxalq institutlara inteqrasiya olunmadan təsəvvür etmək mümkün deyil. Amma baş vermiş təcavüz nəinki təcavüzkar dövlətin müxtəlif dövlət forumlarından, iqtisadi birliklərdən və proqramlardan, həmçinin danışıqlar meydançalarından xaric etmək üçün əsas verir (bu isə belə dövlətin təcrid olmasına və onun siyasi, iqtisadi, maliyyə və. s. sahələrdə rolunun azalmasına gətirir), o həm də ona qarşı beynəlxalq sanksiyaların, beynəlxalq hüquq ilə nəzərdə tutulmuş digər tədbirlərin tətbiqi üçün hüquqi əsaslar yaradır. Ayrı-ayrı dövlətlər tərəfindən beynəlxalq hüquq müddəalarına əməl edilməməsi həm digər dövlətlər tərəfindən kəskin mənfi rezonans doğura bilər və həm də dünya ictimai fikir tərəfindən belə ölkələrin xarici siyasət fəaliyyətinin qınanmasına gətirə bilər.

Beləliklə, aydın və dəqiq ifadə olunmuş beynəlxalq hüquq beynəlxalq münasibətlərin nizamlayıcı normativ sistemində vacib rol oynayır. Bu səbəbdən öz məqsədlərinə çatmaq üçün bəzi dövlətlər güya ki, beynəlxalq hüququn ayrı-ayrı prinsipləri və normaları arasında ziddiyyətlərin mövcüd olmasına istinad edirlər. Bu hal beynəlxalq hüquq doktrinasında da öz əksini tapmışdır. Belə ki, elmi ədəbiyyatda belə bir fikir irəli sürülmüşdür ki, bəzi beynəlxalq hüquqi prinsiplər bir-birinə ziddir, məsələn xalqların (millətlərin) öz

müqəddaratını təyin etmə prinsipi dövlətlərin ərazi bütövlüyü prinsipinə [3], guya ki, dövlətlərin sərhəd toxunulmazlığı prinsipi və xalqlrın öz müqəddəratını sərbəst təyin etmə hüququ arasında toqquşma mövcüddur.[4] Bu səbəbdən dövlətlərin ərazi bütövlüyü və xalqlrın hüquq bərabərliyi və öz müqəddəratını təyin etmə prinsiplərinin qarşılıqlı əlaqəsi kimi müasir beynəlxalq hüququn mürəkkəb, çoxtərəfli və aktual problemin tədqiqi və tərtib edilməsi böyük elmi əhəmiyyətə malikdir. Beynəlxalq hüquq ədəbiyyatında xüsusilə vurğulanır ki: "*Müasir beynəlxalq hüququn əsaslarına aid olan bir sıra faktiki və hüquqi problemlərin həllinə ehtiyacı var. Mərkəzi yer burada ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə prinsipləri tutur*".[5] Və tam təbiidir ki, bu problematika həm beynəlxalq hüquq sahəsində hüquqşünasların və mütəxəssislərin elmi tədqiqatları və həmçinin beynəlxalq birliyin diqqəti predmetidir. Dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin qarşılıqlı əlaqəsi təkcə beynəlxalq hüququn nəzəri problemi deyil, bu problematika həm dövlətlərin, həm də beynəlxalq təşkilatların praktiki fəaliyyəti üçün də çox aktualdır. Bu hal son dövrdə bütövlükdə dünyada və onun ayrı-ayrı regionlarında ümumi sülhə və beynəlxalq təhlükəsizliyə təhlükə yarada bilən və tez-tez yaradan münaqişələrin yaranmasının mənbəyi kimi ərazi problemlərinin əhəmiyyətinin artması tendensiyası ilə bağlıdır. Son zamanlar müasir beynəlxalq hüquqda bu iki prinsipin nisbəti və qarşılıqlı əlaqəsinə dair diskussiyaları aktivləşdirən bir sıra hadisələr baş vermişdir. Belə ki, dünyanın müxtəlif regionlarında, o cümlədən postsovet məkanında olan ərazi münaqişələri dağıdıcı nəticələrlə və əhali arasında çoxsaylı qurbanların verilməsi ilə müşahidə olunmuşdur. Bununla yanaşı, tənzimlənməmiş münaqişələr hərdən "söndürülməmiş qalaraq"

---

[3] Müllerson, R.*A.*, Ordering Anarchy*:* International Law in International Society, The Hague**,** Nijhoff, 2000**,** p. 156

[4] Цыганков, П.А. Теория международных отношений / П.А Цыганков. - М.: Гардарики, -2006. – 590 с. 30-371

[5] Krüger, Heyko. Der Berg-Karabach-Konflikt. Eine juristische Analyse. Springer Dordrecht Heidelberg, London, New York, 2009, p. 2

uzanan xarakter daşıyır, hərdən isə onların surətlə kəskinləşməsi baş verir. Bir sıra hallarda onların həll edilməsi prosesinə təsir edən yeni amillər əmələ gəlir. Həmçinin nəzərə almaq lazımdır ki, bu problem universal xarakterə malikdir və onun dünyanın müxtəlif regionlarında müşahidə etmək olar. 1990-cı illərdən başlayaraq Avropada bütün irihəcmli silaylı münaqişələr (məsələn, keçmiş Yuqoslaviya ərazisində), və həm də postsovet məkanında (Moldovada - Dnestryanı, Ukraynada Krım və Cənubi-Şərq Ukrayna, yaxın keçmişdə Rusiyada – Çeçenistanda), xüsusən də Cənubi Qafqazda, bu və ya digər halda, ərazi problemləri ilə bağlı idi. Kataloniya məsələsi üzrə İspaniyada baş verən hadisələr (müstəqillik məsələsi üzrə Kataloniyada qanunsuz referendumun keçirilməsi), və həmçinin Böyük Britaniyada Şotlandiya məsələsi üzrə mərkəzi hakimiyyət orqanları tərəfindən razılıq verilmiş referendumun keçirilməsi Qərbi Avropada bi problematikanın təzahürləridir. Şimali Kiprlə və Kosovonun sona qədər müəyyən edilməmiş statusu ilə əlaqəli məsələlər də Avropa üçün bu problemin xüsusi vacib olmasına dəlalət edir.

Bu problem dünyanın digər regionlarına da aid aktualdır. Belə ki, Asiya qitəsində, Yaxın Şərqdə İraqın ərazisində 25 sentyabr 2017-ci ildə heç bir dövlət tərəfindən tanınmamış müstəqil kürd dövlətinin bəyan edilməsi cəhdini göstərmək olar. İraq və Suriyanın ərazilərində İraq Şam Dövlətinin yaranması isə dünyada ümumi sülh və təhlükəsizliyə təhdid yaratmış və dünya birliyi tərəfindən müdaxilə etməsinə səbəb olmuşdur. Pakistan tərəfindən dəstəkləyən, Hindistan tərəfindən isə tanınmayan “Azad Kaşmir” ərazi birliyinin yaranması ilə bağlı problem də çox böyük təhlükə mənbəyidir, çünki hər iki dövlət nüvə silahına sahibdir. Afrika qitəsində bu problemin ən son təzahürü Malinin Şimal-Şərqində 2 aprel 2012-ci ildə tuareqlər tərəfindən “Azavad” adlandırılan müstəqil dövlətin yaradılmasının bəyan edilməsini göstərmək olar. Bütövlükdə bu problematika beynəlxalq hüquq elmində çox mübahisələr doğurur.[6]

---

[6] Crawford, J.R. The Creation of States in International Law / J.R. Crawford. - New York: Oxford, - 2007, p. 376

Qeyd etmək lazımdır ki, beynəlxalq hüquq doktrinasında dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin qarşılıqlı əlaqəsinə dair vahid fikir yoxdur. Bu problem beynəlxalq hüquqda və dünya siyasətində ən mürəkkəb və mübahisəlidir.[7] Onun aktuallığı və siyasi kəskinliyi ayrılmaz iplərlə həm dövlətlərin, həm də bütövlükdə dünyanın və onun müxtəlif regionlarının aqibəti ilə bağlıdır.

Ermənistan-Azərbaycan münaqişəsi belə növ münaqişələr sırasında ən kəskinlərindən birisi idi və tarixi, siyasi, hüquqi, iqtisadi, mədəni və ideoloji və s. kimi müxtəlif çoxsaylı aspektlərə malikdir. Lakin onların arasında bu problematikanın hüquqi aspekti xüsusilə vacib əhəmiyyət kəsb edir, çünki Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsi hüquqi vasitələrlə rəsmiləşdirilməlidir. Ermənistan-Azərbaycan münaqişəsinin uzunmüddətli tarixinə baxmayaraq Azərbaycan hüquq elmində beynəlxalq hüquq prinsipləri qarşılıqlı əlaqəsi nöqteyi-nəzərindən bu problematikanın hüquqi xarakterinin tədqiq edilməsinə dair sistemli xarakterli elmi araşdırma aparılmamışdır.

**Tədqiqat mövzusunun elmi işlənmə dərəcəsi.** Qeyd etmək lazımdır ki, ölkə hüquq ədəbiyyatında ərazi münaqişələrin beynəlxalq-hüquqi tənzimlənməsi probleminin bəzi aspektlərini tədqiq edən, əsaslı xarakter daşıyan bir neçə işlər mövcüddur. Onların arasında O.F. Efendiyevin 2008-ci il tarixli "Mərkəzi Qavqazda silahlı münaqişələr və müharibə cinayətləri" adlı əsərini qeyd etmək olar. Bu işdə Ermənistan-Azərbaycan münaqişəsinə bir yarımfəsil həsr edilsədə (4.2. yarımfəsil, s. 177-185) əsas diqqət Mərkəzi Qavqaz regionunda silahlı münaqişələr zamanı baş verilmiş müharibə cinayətlərinə və onların yaratdığı məsuliyyət məsələlərinin tədqiqiqə yönəlib. V.A. İbayevin 1999-cu il tarixli "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn jus

[7] Остроухов Н.В. Территориальная целостность государств в современном международном праве и ее обеспечение: теоретико-правовые и международно-правовые измерения // Вестник РУДН, серия Юридические науки, 2013, № 3, - с. 245

cogens prinsipləri prizmasında" adlı işində əsas diqqət beynəlxalq hüququn əsas prinsipi anlayışının müəyyən edilməsi, 1975-ci il Helsinki yekun aktında öz əksini tapmış 10 prinsipin hər birinin məzmununu tədqiq edilməsinə yönəlib. T.F. Musayevin 2001-ci il tarixli "Dağlıq Qarabağ münaqişəsinin hüquqi aspektləri" adlı işində bu münaqişəyə dair digər aspektlərlə yanaşı, SSRİ dönəmində qəbul edilmiş hüquqi sənədlərin tədqiqinə xüsusi diqqət ayrılır. İ.M. Mammadov və T.F. Musayevin 2008-ci il tarixli "Ermənistan-Azərbaycan münaqişəsi: tarix, hüquq, vasitəçilik" adlı əsərində əsas diqqət bu münaqişənin tarixinə, onun həllinə yönəlmiş vasitəçilik səylərinin işıqlandrılmasına və bəzi hüquqi aspektlərinə yönəlmişdir. K.N. Makili- Əliyevin 2008-ci il tarixli "Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüququn tətbiqi" adlı işində əsasən bu münaqişəyə dair humanitar və beynəlxalq cinayət hüququ məsələləri araşdırılır. N.Q. Əliyevin 2009-ci il tarixli "Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüquq məsələləri" adlı əsərində bu münaqişənin tənzimlənməsinə dair ümimi məsələlər tədqiq olunur və bu münaqişənin həllinə dair müxtəlif modellər araşdırılır. F. Zeynalovun 2012-ci il tarixli "Dağlıq Qarabağ münaqişəsi: Ədalətli sülhə və ya qaçılmaz müharibəyə. Tarixi, geosiyasi və hüquqi yanaşma" adlı əsərində əsas diqqət Dağlıq Qarabağ münaqişəsinin tarixi və geosiyasi aspektlərinin araşdırılmasına yönəlib.

Təqdirə layiqdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquqi tənzimlənməsi problematikasına son illər bir neçə xarici hüquqşünas alimlər və mütəxəssislər də müraciət etmişlər. Məsələn, alman hüquqşünası və diplomatı Heyko Krüqerin 2013-ci il tarixli "Dağlıq Qarabağ münaqişəsi. Hüquqi təhlil" adlı və ukraynalı beynəlxalq hüquqşünas A.A. Merejkonun 2014-cü il tarixli "Dağlıq Qarabağ problemi və beynəlxalq hüquq" adlı əsərlərini də göstərmək olar. Dağlıq Qarabağ probleminin adı ötəri olaraq, digər münaqişələrlə yanaşı, Böyük Britaniya hüquqşünası Malkolm Şounun "Beynəlxalq hüquq" əsərində də qeyd edilir.

Bununla yanaşı hüquq ədəbiyyatında Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etmə

prinsiplərin qarşılıqlı əlaqəsinə dair müxtəlif nəzəri konsepsiyaların, beynəlxalq hüquq nəzəriyyəsi nöqteyi-nəzərindən Ermənistanın təcavüzkar kimi tanınmasının, Ermənistan tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasının beynəlxalq hüquqa zidd olmasının, dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipləri arasında ziddiyyətin olmamasının, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin Ermənistan-Azərbaycan münaqişəsinə aid tətbiq edilə bilməməsinin, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində vurulmuş maddi və mənəvi zərərin ödənilməsinin zəruriliyinin, Ermənistanın təcavüzünə qarşı Azərbaycan Respublikasının özünümüdafiə hüququ konsepsiyasının əsaslandırılmasının sistemli tədqiqinə həsr edilmiş fundamental xarakterli elmi əsər yoxdur. Hazırki dissertasiya işi yuxarıda qeyd edilən sahələrdə tədqiqatın aparılmasına və boşluqların aradan qaldırılmasına həsr edilib.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının məqsədi Ermənistan-Azərbaycan münasibətlərinin tənzimləməsi kontekstində dovlətlərin ərazi bütovlüyü və xalqların öz müqəddəratını təyinetmə prinsipləri arasında nisbət konsepsiyasını hazırlamaq və inkişaf etdirməkdir, habelə bu tənzimləmənin təkmilləşdirilməsi və muəyyən edilmiş problemlərin həlli ilə bağlı vahid elmi anlayışın formalaşdırılmasından ibarətdir.

Müəyyən edilmiş məqsədə çatmaq üçün müəllif tərəfindən aşağıdakı vəzifələr qoyulmuşdur:

1. dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin qarşılıqlı əlaqəsi probleminin əsas nəzəri aspektlərini və hüquqi təbiətini acıqlamaq;
2. qlobalizasiya dövründə bu problematikanın əsas inkişaf istiqamətlərini və tendensiyalarını müəyyən etmək;
3. dövlətlərin ərazi bütövlüyü prinsipi anlayışının hüquqi tərifini vermək;
4. dövlətlərin ərazi bütövlüyü prinsipinin hüquqi mahiyyətini və əsas ünsürlarını, onun formalaşmasının əsas mərhələlərini və xüsusiyyətlərini müəyyən etmək;

5. xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin hüquqi mahiyyətini və əsas ünsürlərını, onun formalaşmasının əsas mərhələlərini və xüsusiyyətlərini müəyyənləşdirmək;

6. beynəlxalq hüquq elmində xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə əsas doktrinal yanaşmaları açıqlamaq;

7. xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin subyektlərini müəyyən etmək;

8. dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərin qarşılıqlı əlaqəsinin əsas doktrinal konsepsiyalarını müəyyən etmək;

9. müasir beynəlxalq hüquqda yeni dövlətlərin yaranması probleminin nəzəri və praktiki aspektlərini açıqlamaq;

10. beynəlxalq hüquqda yeni dövlətlərin yaranmasının hüquqauyğun üsullarını müəyyən etmək;

11. Kosovo probleminin və bütün postsovet məkanında regional münaqişələrin beynəlxalq hüquqi tənzimlənməsi xüsusiyyətlərini acıqlamaq;

12. beynəlxalq hüquqda dövlətlərin tanınması institutunun xüsusiyyətlərini aşkar etmək;

13. Ermənistan-Azərbaycan münaqişəsinin əsas səbəbi kimi Ermənistanın Azərbaycana qarşı təcavüzünü göstərmək;

14. Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində vurulmuş zərərin ödənilməsinin beynəlxalq hüquqi aspektlərini müəyyən etmək;

15. Ermənistan Respublikasının təcavüzünə qarşı Azərbaycan Respublikasının özünümüdafiə hüququnun həyata keçirilməsinin hüquqi əsaslarını açıqlamaq;

16. Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə dair beynəlxalq təşkilatların qərarlarının beynəlxalq hüquqi aspektlərini müəyyən etmək.

**Tədqiqatın obyektini** dövlətlər arasında münasibətləri nizamlayan müasir beynəlxalq hüququn əsas və ümumtanınmış prinsiplərinə aid olan dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq

bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin məzmununun müəyyən edilməsi, onların bir biri-ilə nisbəti və qarşılıqlı əlaqəsi ilə bağlı problem təşkil edir.

**Tədqiqatın predmetini** Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması kontekstində beynəlxalq hüquq sistemində dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin nisbəti və qarşılıqlı fəaliyyəti probleminin nəzəri və praktiki aspektlərinin, müasir beynəlxalq hüquq nöqteyi-nəzərindən yeni müstəqil dövlətlərin yaranmasının hüquqauyğunluğunu müəyyən edən meyarların dəqiq ifadə edilməsi, dövlətlərin tanınması institutunun inkişafında yeni tendensiyaların aşkarlanması, və bununla bərabər, Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünün və Ermənistanın bu təcavüzü nəticəsində Azərbaycana vurulmuş zərərin ödənilməsinin beynəlxalq hüquqi aspektlərinin müəyyən edilməsi, Azərbaycan Respublikasının özünümüdafiə hüququnun, Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsinə dair beynəlxalq təşkilatların qərarlarının hüquqi aspektlərinin təsnif edilməsi təşkil edir.

**Tədqiqat metodları.** İşin metodoloji əsasını tədqiq olunan halların formalaşması prosesində gerçəkliyin obyektiv və hərtərəfli dərketməsi vasitəsi kimi elmi dərketmənin dialektik metodu, və elmi dərketmənin bütün mərhələlərində və səviyyələrində tədqiq olunan halların və proseslərin mahiyyətinin öyrənilməsi üçün ona əsaslanmış xüsusi-elm, tarixi-hüquq, müqayisəli-hüquq, məntiq, formal-hüquq, sistem-struktur və s. kimi metodlar təşkil edir. Belə ki, dövlətlərin ərazi bütövlüyü definisiyasının müəyyən edilməsində formal-hüquq metoddan, dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin formalaşmasının araşdırarkən tarixi-hüquqi metoddan, dövlətlərin ərazi bütövlüyü prinsipinin məzmununu və ünsürlərını araşdırarkən sistem-struktur metoddan, Kosovo probleminin tənzimlənməsinin digər ərazi münaqişələrlə müqayisəsini apardıqda müqayisəli-hüquqi metodundan istifadə edilib.

**Müdafiəyə çıxarılan əsas müddəalar** dissertasiya tədqiqatının məqsəd və vəzifələrindən irəli gəlir və aşağıdakılardan ibarətdir:

1. Beynəlxalq hüquqda dövlətlərin ərazi bütövlüyü prinsipi həm *jus cogens* normaları xarakterini, həmçinin *erga omnes* normaları xarakterini daşıyan əsas, ümumtanınmış prinsiplərdən biridir. Bu prinsipin təkcə hüquqi mahiyyətini yox, həm də onun mövcüdlüyünü şübhə altına almaq məqsədilə edilən cəhdlər hüquqi cəhətdən əsassızdır və həm beynəlxalq qanunvericiliyə, həm də dövlətlərin beynəlxalq praktikasına ziddir.

2. Dövlətlərin ərazi bütövlüyü prinsipinin müəyyən edilmiş xarakterinə baxmayaraq beynəlxalq hüquqi aktlarda onun definisiyası yoxdur. Lakin belə anlayışın işlənib tərtib edilməsi həm elmi araşdırmaların aparılmasında və konkret təkliflərin irəli sürülməsində, həmçinin beynəlxalq hüququn əsas prinsipləri sistemində bu prinsipin məzmunu və mahiyyətinin müəyyən edilməsində vacib nəzəri əhəmiyyətə malikidir. Müəllif tərəfindən dövlətlərin ərazi bütövlüyü prinsipinin definisiyası irəli sürülür. Bu definisayaya əsasən dövlətin ərazi bütövlüyü prinsipi altında zəbt, işğal, ərazisinin parçalanması və ya mənsubiyyətinin dəyişdirilməsi, zərər vurulması, və həmçinin ərazisindən qanunsuz istifadə edilməsi və ya təbii sərvətlərinin və iqtisadi potensialının istismarı daxil olmaqla hər bir dövlətin ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya vahidliyinə qarşı hər hansı bir hərəkətlərin edilməsindən çəkinməyi nəzərdə tutan imperativ xarakter daşıyan beynəlxalq hüququn ümumtanınmış normalarında əks olunmuş beynəlxalq münasibətlərdə dövlətlərin davranışlarının rəhbəredici başlanğıcları və qaydaları başa düşülür.

3. Ermənistan tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinə daxil olan, yəni hər bir dövlətin ərazi bütövlüyünə qarşı güc tətbiq etməyin və ya güc tətbiq etmək təhdidinin qadağan edilməsi; güc tətbiq etmək və ya güc tətbiq etmək təhdidi nəticəsində dövlət ərazisinin digər dövlət tərəfindən hərbi işğal və ya əldə etmə obyektinə çevrilməsinin qadağan edilməsi; təkcə hər bir dövlətin ərazi bütövlüyünə qarşı güc tətbiq etməyin və ya güc tətbiq etmək təhdidinin qadağan edilməsi yox, BMT Nizamnaməsinin məqsədləri və prinsipləri ilə bir araya sığılmayan hər bir dövlətin ərazi bütövlüyünə qarşı hər hansı bir hərəkətlərin

edilməsindən çəkinmək öhdəliyi; onun aşkar şəkildə ifadə olunmuş razılığı olmadan digər dövlətin ərazisindən istifadənin qadağan edilməsi kimi əsas komponentlər və ünsürlar pozulmuşdur.

4. Müasir beynəlxalq hüquqda xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin təsirinin müəyyən çərçivəsi var. Beynəlxalq hüquqi sənədlərdə, BMT təcrübəsində, müstəqil dövlət yaratma və ayrılma (sesessiya) şəklində xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin həyata keçirilməsi müstəmləkə xalqlar və millətlər və ya rasist rejimlərinin zülmü və ya xarici hökmranlığın digər formaları altında olan xalqlara aid edilir. Beynəlxalq hüquq bu müstəvidən kənarda müstəqil dövlətlərdən ayrılma hüququnu nəzərdə tutmur.

5. Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi problemini müstəmləkədən azad edilməsi prosesi kontekstində baxmaq hüququyğun deyil və mümkünsüzdür. Azərbaycan heç bir vaxt müstəmləkə dövləti olmamışdır, əksinə Türkmənçay və Gülüstan müqavilələri Rusiya imperiyası tərəfindən Qarabağ regionu daxil olmaqla Azərbaycanın torpağlarının işğalını hüquqi cəhətdən təsdiqləmişdir. Vahid Qarabağ regionunun həm dağlıq, həmçinin aran hissəsi həmişə Azərbaycanın ayrılmaz hissəsi olmuşdur. Azərbaycan BMT Nizamnaməsi qəbul olunan dövrdə, özünün bir çox regionları ilə birlikdə Sovet İttifaqının bir hissəsi idi. Ermənistanın Azərbaycanla qarşı təcavüzünü "Dağlıq Qarabağ xalqının milli azadlıq müharibəsi" qismində təqdim etmək cəhdinin heç bir hüquqi əsası yoxdur, çünki nə dünya birliyi, nə də BMT heç bir vaxt keçmiş Dağlıq Qarabağ regionunun Azərbaycanın "müstəmləkəçilik hökmranlığı" və ya "xarici işğalı" altında olan ərazi kimi baxmayıb. Müstəmləkəçilikdən azad olunma prosesi kontekstində xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin Ermənistan-Azərbaycan münaqişəsinə heç bir aidiyyatı yoxdur, ona aid tətbiq edilməsi mümkümsüzdür və heç bir hüquqi əsasa malik deyil.

6. Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin həyata keçirilməsi subyekti kimi yanlız bütün xalq çıxış edir. Müxtəlif azlıqlar (milli, etnik, dil, din və s.) sesessiya

formasında xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin həyata keçirilməsi subyekti deyillər. Azərbaycan Respublikasının ərazisində yaşayan ermənilər bircə etnik mənsubiyyətlləri ilə fərqlənirlər və onlar xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin həyata keçirilməsinin subyekti deyil.

7. Xalqların hüquq bərabəriyi və öz müqəddəratını təyinetmə prinsipinin üstünlüyü konsepsiyasının nə beynəlxalq qanunvericilikdə, nə də müxtəlif ölkələrin konstitusiya qanunvericiliyində hüquqi əsası yoxdur. Bu konsepsiyanın meydana gəlməsi əsasən Abxaziyanın, Cənubi Osetiyanın və Dnestryanının müvafiq olaraq Gürcüstandan və Moldovadan, Krımı və Cənub-Şərq Ukraynanı isə Ukraynanın zorla alınmasını və həmçinin Ermənistan tərəfindən Azərbaycan Respublikasının torpaqlarının və digər ərazilərinin işğalını əsaslandırmaq cəhdləri ilə bağlıdır.

8. Dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipləri arasında ziddiyyətlərin olması konsepsiyası əsassızdır. Bu prinsiplər fərqli tətbiqetmə sahələrinə aiddirlər və onların mahiyyətindən irəli gələn müxtəlif rəhbəredici başlanğıclar və standartlara malikdirlər. Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin məzmununda, əgər o suveren və müstəqil dövlətlərin parçalanmasına və ya ərazi bütövlüyünün və ya siyasi vahidliyinin tam və ya qismən pozulmasına aparan hər bir hərəkətləri sanksiyalaşdırır və ya təşviq edirsə, bu prinsipin tətbiq edilə bilməməsini nəzərdə tutan klauzula mövcüddur. Bu klauzula xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin praktiki tətbiqinin konkret şərtlərini və dövlətlərin ərazi bütövlüyü prinsipi ilə nisbətinin əsas parametrlərini müəyyən edir.

9. Dövlətlərin ərazi bütövlüyü prinsipinin dövlətlər arasında münasibətlərə tətbiq edilməsi, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin isə dövlətin yanlız tərəflərdən birisi olan dövlət daxilində baş verən proseslərə toxunması səbəbindən bu prinsiplər arasında ziddiyyətlərin olması konsepsiyası da əsassızdır. Çünki bu halda təsdiqləmək olar ki,

xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi beynəlxalq münasibətləri tənzimləyən beynəlxalq hüquq prinsiplərinə aid deyil, bu isə, təbii ki, yanlışdır. Dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipləri müasir beynəlxalq hüququn prinsipləridir və onların tətbiqetmə sferası dövlətlərarası münasibətlər sahəsini əhatə edir.

10. Müasir dövrdə yeni dövlətlərin yaranması yanlız beynəlxalq hüquqla nəzərdə tutulan hüquqauyğun vasitələrlə baş verməlidir. Müstəqil dövlət statusuna iddia edən və özünün beynəlxalq tanınması üçün yeni yaranan dövlət formal nöqteyi-nəzərindən, müəyyən ərazi, əhali, səmərəli nəzarəti həyata keçirən idarəetmə orqanları, dövlətlərarası münasibətlərə girmə qabiliyyəti kimi əlamətlərə malik olma ilə yanaşı həm də müasir beynəlxalq hüquq ilə nəzərdə tutulmuş hüquqauyğun vasitələrlə yaradılmalıdır. Hüquqauyğun olmayan vasitələrlə, yəni beynəlxalq hüquq norma və prinsiplərinin pozulması ilə yaradılmış separatçı ərazi qurumların dünya birliyi dövlətləri tərəfindən müstəqil dövlətlər kimi tanınmasının heç bir hüquqi əsası yoxdur.

11. Kosovo ətrafında olan münaqişə və onun nizamlanması digər ərazi münaqişələrin hüquqi nizamlanmasından köklü şəkildə fərqlənir. Hal-hazırda Kosovo daha çox müstəqil dövlət kimi yox, müəyyən bir protektorat kimi fəaliyyət göstərir. Kosovo probleminin yekunda necə həll olunmasından asılı olmayaraq, o hüquq nöqteyi-nəzərindən Ermənistan-Azərbaycan münaqişəsinin və postsovet məkanında olan digər münaqişələrin tənzimlənməsində əsas və ya nümunə və presedent kimi çıxış edə bilməz.

12. Ərazisində beynəlxalq hüququn norma və prinsiplərin pozulması ilə yaradılmış özünübəyanetmiş separatçı qurumunun yaranması nəticəsində ərazi bütövlüyü pozulmuş dövlət tərəfindən, o cümlədən belə qurumun ləğvinə yönəlmiş bütün tədbirlərin görülməsi tam hüquqauyğundur və beynəlxalq hüquq normaları və prinsiplərinə müvafiqdir. Bu halda ərazi bütövlüyü pozulmuş dövlətə aid dünya birliyi dövlətlərin hərtərəfli siyasi, diplomatik, hərbi və

iqtisadi yardım göstərilməsi hüquqauyğun xarakter daşıyır və tam əsaslıdır.

13. Təcavüzkar dövlətin beynəlxalq məsuliyyətə cəlb edilməsi həm də təcavüz aktlarının törədilməsində təqsirli şəxslərin cinayət cəzalandırılması məqsədilə belə dövlətin müəyyən edilməsi imkanını nəzərdə tutan müasir beynəlxalq hüquqda bir dövlətin digərinə qarşı təcavüzünün müəyyən edilməsi üçün kifayət qədər baza və hüquqi meyarlar mövcüddur. Ermənistan Respublikası silahlı qüvvələrin Azərbaycan Respublikası silahlı qüvvələrinə hücumu, Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikası ərazisinin bombalanması, Azərbaycan Respublikası ərazisinə Ermənistan Respublikası silahlı qüvvələrinin soxulması və hücumu və belə soxulmanın nəticəsi kimi Azərbaycan Respublikası ərazisinin bir hissəsinin işğalı, Azərbaycan Respublikasının işğal olunmuş torpağlarında qurulmuş oyuncaq separatçı rejimə Ermənistanın hərtərəfli hərbi-siyasi, iqtisadi və maliyyə yardımı və həmçinin Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində qanunsuz silahlı erməni birləşmələrinin maddi-texniki təchizatı, tamamilə həm "Təcavüzün müəyyən edilməsi haqqında" BMT Baş Assambleyasının qətnaməsində, həm də 31 may-11 iyun 2010-cu ildə keçirilmiş Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma statutunun icmalı üzrə birinci Konfransında qəbul olunmuş BCM-nin Nizamnaməsinə əlavə edilmiş maddələrdə əks olunmuş təcavüz anlayışı altına düşən Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzün törədilməsi faktının təkzibolunmaz sübutu kimi dəyərləndirilməlidir.

14. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Ermənistanın beynəlxalq hüquqi məsuliyyətini iki məsuliyyət növünə bölmək olar: Ermənistanın dünya birliyi dövlətləri qarşısında məsuliyyəti və təcavüz nəticəsində vurulmuş konkret maddi və mənəvi zərərə görə Ermənistan Respublikasının Azərbaycan Respublikası qarşısında məsuliyyəti. Təcavüz, soyqırım, etnik təmizləmə, aparteid, irqi ayrı-seçkilik, və s. kimi əməllərin törədilməsi BMT Nizamnməsinin pozulmasına yönəlib və dünya birliyi dövlətləri tərəfindən

beynəlxalq cinayətlər kimi tövsif edilir. Belə növ hərəkətlərin edilməməsi öhdəlikləri *erga omnes* öhdəlikləri xarakterini daşıyır və bütün dövlətlərin hüquqi marağı olduğu səbəbindən onlar belə növ öhdəliyi pozmuş dövləti məsuliyyətə cəlb etmək hüququna malikdirlər. Ermənistan Respublikasının dünya dövlətləri birliyi qarşısında məsuliyyəti ilk növbədə Ermənistan Respublikasının silahlı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılması, təcavüzün nəticələrinin ləğv edilməsi, təcavüzkar müharibənin açılmasında və dinc əhaliyə qarşı Xocalı soyqırımının törədilməsində təqsirli şəxslərin cinayət məsuliyyətinə cəlb edlməsi zərurətini yaradır. Ermənistanın Azərbaycana qarşı təcavüzə görə beynəlxalq hüquqi məsuliyyəti restitusiya, kompensasiya və satisfaksiya formalarında ifadə oluna bilər.

15. Ermənistan Respublikasının Azərbaycan Respublikasına silahlı hücumu Azərbaycan Respublikasının özünümüdafiə hüququnun yaranmasına gətirmişdir. Azərbaycan Respublikası Ermənistan Respublikası tərəfindən hücuma məruz qalmış tərəf kimi bu silahlı hücum faktının birinci müəyyən etməsi hüququna malikdir. Bununla yanaşı Azərbaycan Respublikası özü özünümüdafiə hüququnun həyata keçirilməsinin başlanğıc anını müəyyən etmək hüququna malikdir.

16. BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası, Aİ, İƏT, NATO və s. kimi beynəlxalq təşkilatların qərarlarında Azərbaycan Respublikasının ərazi bütövlüyü dəstəklənir və Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasının Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.

**Tədqiqatının elmi yeniliyi**. Dissertasiya işində ölkə beynəlxalq hüquq doktrinasında dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipləri kimi beynəlxalq hüququn əsas prinsiplərinin qarşılıqlı əlaqəsi probleminin aktual aspektləri və bu problemə müasir beynəlxalq hüquqda yeni yanaşmalar ilk dəfə olaraq monoqrafik xarakterli müstəqil elmi tədqiqat predmetidir.

Araşdırılan problematikanın ayrı-ayrı aspektlərini işıqlandıran tədqiqatlardan fərqli olaraq hazırki dissertasiyada ilk dəfə olaraq sistemli şəkildə dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin nisbəti və qarşılıqlı əlaqəsi probleminin araşdırılması aparılmışdır. Belə yanaşma müəllifə dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin normativ mahiyyətinin bir-birinə zidd olmaması konsepsiyasının irəli sürülməsinə imkan vermişdir.

İşin elmi yeniliyi həmçinin Azərbaycanın Ermənistan ilə münasibətlərində dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərin nisbəti və qarşılıqlı əlaqəsi probleminin araşdırılmasıdır. Bununla yanaşı postsovet məkanında ərazi münaqişələrin nizamlanması probleminin müqayisəli tədqiq edilməsinə də xüsusi diqqət verilir. İşin elmi yeniliyi həm də ondan ibarətdir ki, müəllif beynəlxalq hüquq subyektləri kimi yeni müstəqil dövlətlərin yaranmasının hüquqauyğunluğu konsepsiyasını hüquqi cəhətdən əsaslandırır, belə hüquqauyğunluğun meyarlarını müəyyən edir və təsnifatını aparır.

Dissertasiyanın yeniliyi həm də onunla müəyyənləşdirilir ki, ilk dəfə Azərbaycanın elmi dövriyyəsinə yeni elmi məlumat daşıyan bir sıra sənədlər daxil edilir. Onların təhlili əsasında müəllif tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin əsas səbəbi kimi Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında müddəa təsdiqlənir.

İşin elmi yeniliyinə Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində vurulmuş zərərin ödənilməsinin beynəlxalq hüquqi əsasının müəyyən edilməsi də aiddir. Bundan əlavə, hazırki tədqiqatın elmi yeniliyinə müəllif tərəfindən Ermənistanın təcavüzünə qarşı Azərbaycan Respublikasının özünümüdafiə hüququ konsepsiyasının əsaslandırılması, həm də Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipini təsdiqləyən Ermənistan-Azərbaycan münaqişəsinə dair beynəlxalq hökumətlərarası təşkilatların qərarlarının beynəlxalq hüquqi

aspektlərinin sistemli şəkildə tədqiq edilməsi və sistemləşdirilməsi aiddir.

**Tədqiqatın nəzəri əsası**. Dissertasiyada araşdırılan problematikanın ayrı-ayrı aspektlərinin tədqiqinə həsr edilmiş həm Azərbaycan, həm də xarici alimlərinin tədqiqatlarından geniş istifadə edilib. İşdə Ə.İ.Əliyev, R.F.Məmmədov, L.H. Hüseynov, A.İ.Sadıqov, O.F.Efendiyev, E.A.Əliyev, V.A.İbayev, N.Q. Əliyev, S.V.Yusifova, T.F.Musayev kimi Azərbaycan hüquqşünas alimlərin əsərlərindən istifadə edilib.

Dissertsiya işinin yazılmasında müəllif Y.Y.Baskin, S.N.Baburin, A.S.Baxov, K.A. Bekyaşev, P.N.Biryukov, İ.P.Blişenko, Q.İ.Boquş, A.S.Buxanova, S.V.Buxmin, A.Q. Duqin, Q.M.Velyaminov, L.İ.Volova, F.R.Qasımov, E.V.Qoroxovskaya, Y.A.Qriqelyonis, D.V.Qruşkin, Q.V.İqnatenko, A.Y.Kapustin, V.A.Kartaşkin, B.N.Klimenko, D.N.Kolesnik, A.V.Kuzmin, İ.İ.Lukaşuk, A.B.Mezyaev, Q.M.Melkov, A.A. Merejko, R.A.Müllerson, A.İ.Poltorak, Y.A.Reşetov, V.A.Romanov, E.İ.Skakunov, L.V.Speranskaya, Q.B.Staruşenko, A.N.Talalayev, S.Q.Timoşkov, L.D. Timçenko, O.İ.Tiunov, Q.İ.Tunkin, N.A.Uşakov, D.İ.Feldman, V.A. Xabriyeva, S.V.Çernenko, Y.E.Çexarin, Q.V.Şarmazanaşvili, M.V.Yanovski və s. kimi aparıcı sovet və həmçinin digər postsovet ölkələri alimlərinin əsərlərindən də istifadə edib.

Dissertasiya işində həm də R.Andjeyçik, L.V. Barrinqton, R.Bledso, B.Bozek, M.Bote, Y.Brounli, X.Veberq, L.F.L.Oppenqeym, J.Q.V.Verzijl, V.Q.Vitsum, Ç.Vişer, T.D.Qil, M.N.Şou, Q.Qrosiy, A.Vrozumskaya, Q.Şvarsenberqer, A.Kassese, A.Kobban, A.R.Koraçini, M.Koskenniemi, J.R.Krouford, F.Kuniq, P.Malançuk, A.Ost, K.Xaylbronner, T.J.Farer, K.Tomuşat, L.F.Damroş, R.Kristesku, Q.Lanzieri, K. Hilqruber, X. Kruqer, X.Q.Espiel, T.D.Masqreyv, T.M.Frank, Q.Fismoris, V.Çaplinski, J.J.Sammers, V.Slomanson, İ.Jenninqs, V.Venqler, Q.Rayt, J.Stark, Q.Ssel, N.K.Din, P.Daye, A.Pelle, T.Potyer, M.Sibert, B.Rivlin, A.Ferdross, B.Simma, L.Xenkin, A. Eyde və d. kimi digər tanınmış xarici hüquqşünas alimlərin və həmçinin D.Linç, T.D.Vaal,

K.Miqdalovis, S.E.Kornell, A.Y.Yonqman, A.P.Şmid, P.T.Lenard, A.Etsioni, İ. Xaindrava kimi politoloqların əsərlərindən də istifadə edilib.

**Tədqiqatın normativ bazasını** beynəlxalq müqavilələr, müxtəlif ölkələrin konstitusiyaları, BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının, İƏT-ın, ATƏT-in, Aİ-nın, Avropa Şurasının, NATO-nun, MDB-nin qətnamələri və qərarları, BMT Beynəlxalq Məhkəməsinin qərarları və məşvərətçi rəyləri, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarları təşkil edir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, onda beynəlxalq hüquq nəzəriyyəsi nöqteyi-nəzərindən Ermənistanın təcavüzkar kimi tanınması; Ermənistan tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinin pozulmasının beynəlxalq hüquqazidd olması; dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipləri arasında ziddiyyətin olmaması; beynəlxalq hüquqda birtərəfli qaydada sesessiyanın hüquqazidd olması; xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin Ermənistan-Azərbaycan münaqişəsinə aid tətbiq edilə bilməməsi; dünya birliyi tərəfindən yanlız hüquqauyğun vasitələrlə yaranmış dövlətlərin tanınması; Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində vurulmuş maddi və mənəvi zərərin ödənilməsinin zəruriliyi; Ermənistanın təcavüzünə qarşı Azərbaycan Respublikasının özünümüdafiə hüququ konsepsiyaları əsaslandırılıb.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiyada ifadə edilmiş əsas nəzəri müddəalar, nəticələr və tövsiyələr 2011-2016-cı illərdə Bakıda keçirilmiş "Hüquq elminin müasir problemləri" adlı I-VI respublika elmi konfranslarında, 2011-ci ildə Bakı şəhərində keçirilmiş "Hüquq elminin və təhsilinin müasir problemləri və onların həlli yolları" adlı beynəlxalq konfransda, və həmçinin 23-24 oktyabr 2014-ci ildə Bakıda keçirilmiş "Azərbaycanda hüquqi dövlət quruluşunun aktual problemləri" adlı beynəlxalq konfransda, 2021-ci ildə "Dövlətlərin suverenliyi və ərazi bütövlüyünün beynəlxalq-hüquqi təminat mexanizmləri" mövzusunda beynəlxalq elmi konfransda məruzə edilmişdir. Dissertasiya işinin əsas müddəaları və

nəticələri həm də üç monoqrafiyada – "Beynəlxalq hüquq nəzəriyyəsində və praktikasında dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin nisbəti", Bakı, 2009, 304 s. (rus dilində), "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq", Bakı, 2012, 344 s., və "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının beynəlxalq hüquqi aspektləri və prinsipləri", Bakı, 2020, 428 s. (rus dilində) və həmçinin Azərbaycan Respublikasının və digər ölkələrin aparıcı elmi jurnallarında və müxtəlif konfransların materiallarında dərc olunmuş 44 elmi məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Fəlsəfə və Hüquq İnstitutun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsində yerinə yetirilmiş və AMEA Hüquq və İnsan Haqları İnstitutunda müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiyanın strukturu həm elmi işin predmetinin xüsusiyyətini və həm də incəliklərini əks etdirir və iddiaçının araşdırılan problematikanın, tədqiqatın məqsəd və konkret vəzifələrinin hərtərəfli açılması istəyi ilə şərtləndirilib və girişdən (34928 işarə), özündə 23 paraqrafı birləşdirən 6 fəsildən (470601 işarə), nəticədən (16413 işarə), istifadə edilmiş ədəbiyyat siyahısından və ixtisarlar siyahısından ibarətdir. İşin ümumi həcmi  521942 – işarədən ibarətdir. İstifadə edilmiş mənbələrin sayı 477-dir. Avtorefratın həcmi 97183 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş hissəsində** tədqiqatının aktuallığı əsaslandırılmış, işin məqsədi və əsas vəzifələri, onun metodoloyi əsası, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilmiş, problemin işlənilmə dərəcəsi, işin elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar və həmçinin tədqiqatın aprobasiya nəticələri göstərilir.

**I Fəsil – Dövlətlərin ərazi bütövlüyü prinsipi"** adlanır və üç yarımfəsildən ibarətdir.***"Dövlətlərin ərazi bütövlüyü prinsipinin anlayışı"*** adlanan ***birinci yarımfəsil*** bu prinsipin beynəlxalq hüquqda definisiyasının müəyyən edilməsinə həsr edilib. Hər bir dövlət öz suveren hakimiyyətini ona məxsus ərazi hüdudlarında həyata keçirir, beynəlxalq hüquqqabiliyyətinə malikdir və beynəlxalq münasibətlər sistemində öz ölkələrini təmsil edir. Bu səbəbdən ərazi dövlətin mövcudluğunun əsas komponentlərindən və şərtlərindən biridir. Bunun gücünə hər bir dövlət öz ərazisinin müdafiə edilməsi məqsədilə bütün zəruri səylər göstərir, bu isə hüquq ifadə forması dövlətlərin ərazi bütövlüyü və toxunulmazlığı prinsipi olan ərazi bütövlüyü anlayışının mahiyyətini təşkil edir.

Qeyd etmək lazımdır ki, bu prinsipə müxtəlif adlar verilir. Belə ki, BMT Nizamnaməsinin rus dilində olan mətnində bu prinsip ərazi toxunulmazlığı prinsipi adlanır (b.4 m. 2), ingilis və həmçinin fransız və ispan dillərində olan mətnlərdə isə, və həmdə ATƏT-in Yekun Aktında bu prinsip ərazi bütövlüyü prinsipi adlanır. Azərbaycan Respublikasının Konstitusiyasında bu prinsip "ərazi bütövlüyü prinsipi", Rusiyanın və Ukraynanın konstitusiyalarında isə bu prinsip "öz ərazisinin bütövlüyü və toxunulmazlığı" adlanır. Bu prinsipin adlandırılmasında analoji fərglər beynəlxalq hüquq ədəbiyyatında da əks olunub. "Dövlətin ərazi bütövlüyü" və "dövlətin ərazi toxunulmazlığı" anlayışları ölkənin dövlət suverenliyinin müxtəlif növlərinin ifadəsidir. Dövlətin ərazi toxunulmazlığının pozulması həm qəsdli, həm də qəsdsiz ola bilər. Yanlız digər dövlətin ərazisinin zorla parçalanmasına yönəlmiş hüquqazidd əməllər dövlət ərazi bütövlüyünün pozulmasına yönəlmiş beynəlxalq hüquqazidd hərəkətlər kimi tövsif edilir. Belə əməllər qəsdlə edilir. Ərazi toxunulmazlığı anlayışı dövlət ərazi bütövlüyü anlayışının tərkib

hissəsidir və bu anlayışlar hissə və tam kateqoriyaları kimi nisbətdədirlər.

Dövlətin ərazi bütövlüyü prinsipi anlayışının altında zəbt, işğal, onun ərazisini parçalamaq və ya ərazisinin mənsubiyyətini dəyişmək, ona zərər vurmaq və həmdə onun ərazisinin qanunsuz istifadəsi və ya onun təbii ehtiyatlarının və iqtisadi potensialının istismarı daxil olmaqla digər dövlətlərin ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya vahidliyinə qarşı hər cür hərəkətlərin edilməsindən dövlətlərin çəkinməsini nəzərdə tutan *jus cogens u erga omnes* xarakteri daşıyan və beynəlxalq hüquq normalarında əks olunmuş dövlətlərarası münasibətlərdə dövlətlərin davranış modelini müəyyənləşdirən rəhbəredici qaydalar və standartlar başa düşülür.

***I-ci fəslin ikinci yarımfəslində*** dövlətlərin ərazi bütövlüyü prinsipinin formalaşmasının xüsusiyyətləri araşdırılır. Beynəlxalq hüquq *jus ad bellum* tanıdığı dövrdə, zəbt etmə ərazinin əldə edilməsinin hüquqauyğun vasitəsi hesab edilirdi. Bəşəriyyət tarixində ilk dəfə digər dövlətlərin ərazisinin istila edilməsindən imtina edilməsini Böyük Fransa İnqilabı bəyan etdi. Fransa İnqilabının çoxsaylı aktlarında (deputat Volneyin "Təklifi", rahib Anri Jan-Batist Qrequarın beynəlxalq hüquq Bəyannaməsinin layihəsi və d.) beynəlxalq hüququn bir çox prinsiplərinin, o cümlədən dövlətlərin ərazi bütövlüyü prinsipinin tədricən formalaşmasının əsasını qoymuş beynəlxalq hüquq sahəsində ən vacib ideyalar əks olunub. XIX əsrdə və XX-ci əsrin əvvəlində bir sıra beynəlxalq sənədlərdə "ərazi bütövlüyü" termininə rast gəlinir. Belə ki, 1814-1815-ci illərdə Vyana konqressinin gedişatında İşveçrənin daimi bitərəfliyi və ərazi bütövlüyü tanınmışdır. 1856-cı il tarixli Paris traktatının VII maddəsində "Osmanlı İmperatorluğunun müstəqilliyi və bütövlüyü" tanınır və s. Millətlər Liqasının Nizamnaməsi dövlətlərin ərazi bütövlüyü prinsipinin tərkibinə daxil olan ünsurların əksini tapmış ilk beynəlxalq müqavilədir. Bu prinsipinin formalaşmasında dövlətlərarası münasibətlərdə müharibəyə əl atmağı qadağan etmiş 27 avqust 1928-ci il tarixli Paris müqaviləsinin bağlanması böyük əhəmiyyətə malik idi. Müasir beynəlxalq hüquq sisteminin formalaşmasının əsasını qoymuş BMT Nizamnaməsinin qəbul

edilməsini dövlətlərin ərazi bütövlüyü prinsipinin formalaşması prosesinin həlledici mərhələsi kimi qiymətləndirmək olar. Dövlətlərin ərazi bütövlüyü prinsipinin məzmununu təşkil edən əsas ünsurlar özünün sonrakı inkişafını BMT Baş Məclisinin 24 oktyabr 1970-ci il beynəlxalq hüquq prinsipləri haqqında Bəyannaməsində tapmışdır. Ərazi bütövlüyü prinsipi tədricən özünün sonrakı müqavilə-hüquqi əksini almağa başladı. (Avstriyanın bərpası haqqında 15 may 1955-ci il tarixli Dövlət müqaviləsi, SSRİ və AFR arasında 12 avqust 1970-ci il sazişi və s.).

Dövlətlərin ərazi bütövlüyü prinsipin formalaşmasında yeni mərhələ 1975-ci ildə ATƏM-in Xelsinki Yekun Aktının qəbul edilməsi ilə bağlıdır. Bu sənəddə ilk dəfə olaraq dövlətlərin ərazi bütövlüyü prinsipinin tam düsturu əks olunub. Bu prinsip ATƏM-in bir sıra sonraki sənədlərində (yeni Avropa üçün Paris Xartiyası, ATƏT-in Budapeşt, Lisbon, İstambul), Vyana İnsan hüquqları üzrə Ümumdünya Konfransın Bəyannaməsi və Fəaliyyət Proqramında və s. da öz əksini tapmışdır. Həmçinin BMT Beynəlxalq Məhkəməsi beynəlxalq hüquq prinsipləri arasında dövlətlərin ərazi bütövlüyü prinsipini xüsusi olaraq qeyd edir (bax *Nicaragua v. United States of America*).[8] Hüquq doktrinasında ərazi bütövlüyü prinsipinə müəlliflərin mütləq əksəriyyəti tərəfindən beynəlxalq hüququn əsas və ümumitanınmış prinsiplərinin biri kimi baxılır. (İ.İ.Lukaşuk[9], M.Şou[10], E.Ost[11], L.D.Timçenko[12] və d.)

Beləliklə, dövlətlərin ərazi bütövlüyü prinsipi, Böyük Fransa ingilabının irəli sürdüyü ideyalardan formalaşmağa başlayaraq həm

---

[8] Case Concerning Military and Paramilitary Activities in and against Nicaragua (Nicaragua v. United States of America), 1986-06-27 // Jurisdiction and Admissibility, Judgment, I.C.J. Reports 1984, p. 392.

[9] Лукашук, И.И. Международное право. Общая часть / И.И. Лукашук. - М.: Волтерс Клувер, 2005. - с. 296, 313-314

[10] Shaw, M.N. International law / M.N. Shaw. - Sixth edition. - New York: Cambridge University Press, 2008, p. 290, 488

[11] Aust, A. Handbook of International Law / A.Aust. - New York: Cambridge University Press, 2005, p. 41

[12] Тимченко, Л.Д. Международное право: учеб. для юрид. спец. вузов МВД / Л. Д. Тимченко. - Харьков: Консум, - 1999. - с. 73-74

beynəlxalq hüquq nəzəriyyəsi və doktrinasında, həmdə dövlətlərin beynəlxalq hüquq praktikasında geniş qəbul olunmuş və tanınmışdır və müasir beynəlxalq hüququn əsas və ümumtanınmış prinsiplərindən birisinə çevrilmişdir.

***"Dövlətlərin ərazi bütövlüyü prinsipinin hüquqi məzmunu və əsas ünsürları"*** adlanan ***I-ci fəslin üçüncü yarımfəsildə*** bu prinsipin normativ məzmunu və əsas ünsurları tədqiq edilir. Belə ünsurlardan biri digər dövlətin ərazi bütövlüyü və toxunulmazlığına qarşı güc tətbiq etmək və ya güclə hədələməyin qadağan edilməsidir. Ermənistan Respublikası sülhə qarşı cinayət olan təcavüzkar müharibəyə başlamaqla yanaşı, həmdə Azərbaycanın bütün ərazisinin 20% işğal etmişdir. Dövlətlərin ərazi bütövlüyü prinsipinin əhəmiyyətli ünsurlarından biri də güc tətbiq etmək və ya güclə hədələmək nəticəsində dövlət ərazisinin hərbi işğal obyektinə və ya digər dövlətin əldə edilməsi obyektinə çevrilrməsinin qadağan edilməsidir. Bu müddəa həm beynəlxalq hüquq prinsipləri haqqında 1970-ci il Bəyannaməsində, həmdə 1975-ci il ATƏT-in Yekun aktında öz əksini tapmışdır. Bu müddəaya müvafiq olaraq BMT Təhlükəsizlik Şurası özünün 822, 853, 874 və 884 nömrəli qətnamələrində digər dövlət ərazisinin əldə edilməsi üçün güc tətbiq etməyin yolverilməzliyini təsdiqlədi. Dünya birliyinin bir dövlətin ərazisinin digər dövlət tərəfindən işğalı və ya yad dövlətin ərazisinin belə əldə etmələrin obyektinə çevrilməsinin qanuni olmasının tanınmasından imtina etməsi haqqında müddəa bu prinsipin əhəmiyyətli ünsurudur. Məhz belə bir normanın olmasına görə dünyanın heç bir dövləti Azərbaycan torpaqlarının işğalını qanunu saymadı. Bu prinsipin bir ünsuru da həmdə dövlətlərin hər bir dövlətin ərazi bütövlüyünə qarşı BMT Nizamnaməsinin məqsədləri və prinsipləri ilə bir araya sığılmayan hər hansı bir hərəkətdən çəkinmək öhdəliyi haqqında müddəasıdır. Bizim fikrimizcə, buraya dövlətlərin digər dövlətlərin ərazisində separatçı hərəkətləri dəstəkləməmək və təşrif etməmək öhdəliyi də daxildir. Ermənistan Respublikası isə, bütövlükdə öz qonşularına (Türkiyə, Gürcüstan, İran) və, xüsusən də Azərbaycana qarşı ərazi iddialarının əsaslandırılmasına yönəlmiş siyasət aparır. Ərazi bütövlüyü

prinsipinin vacib ünsurlarına digər dövlətin onun aşkar şəkildə razılığı olmadan ərazisinin istifadə edilməsinin qadağan olunması haqqında müddəa da aiddir. Bu, birincisi, müəyyən yüklərin, malların, texnikanın və s. daşınması məqsədilə bir dövlətin digər dövlətin razılığı olmadan onun ərazisindən istifadə etməsidir. Buna baxmayaraq Ermənistan beynəlxalq hüquq normalarını pozaraq malların və yüklərin tranziti məqsədilə İranla sərhəd olan işğal olunmuş Azərbaycanın Zəngilan rayonunun ərazisini geniş istifadə edir. İkincisi, bu digər dövlətin təbii sərvətlərinin çıxardılması və istismarının qadağan edilməsidir. Ermənistan işğal olunmuş torpağlarda Azərbaycanın təbii resurslarını vəhşicəsinə istismar edir.

Dövlətlərin ərazi bütövlüyü prinsipinin daha bir ünsuru ətraf mühitə zərərvurma təhlükəsini və həmçinin xaricdən ona təsir etmə üsulu ilə ətraf mühitin təbii vəziyyətinin pisləşməsi təhlükəsini yaradan hərəkətlərdən çəkinmək zərurətidir. Ermənistan bu halda da beynəlxalq hüquq normalarını pozur. Belə ki, bütün regionun və ona yaxın işğal olunmuş ərazilərin suvarlanma və su təchizatı sistemi pozulub, bu isə torpaqların və bitkilərin vəziyyətinə mənfi təsir göstərir. Erməni tərəfi özü işğal edilmiş Azərbaycan ərazilərində qəsdən yanğınlar törədir, flora və faunanı məhv edir, və s.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, Ermənistan tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinin məzmununa daxil olan bütün əsas komponentlər və ünsurlar pozulmuşdur.

**II fəsil «Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi”** adlanır və dörd yarımfəsildən ibarətdir. ***“Beynəlxalq hüquqda xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin anlayışı və mahiyyəti”*** adlanan ***birinci yarımfəsil*** bu prinsipin definisiyasının tədqiqinə və həmçinin onun məzmununun təhlilinə həsr edilib. Hüquq ədəbiyyatında və dövlətlərin praktikasında xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etmə prinsipinin ümumi qəbul olunmuş adı yoxdur. Q.İ.Tunkin və L.Q. Hüseynov “xalqların öz müqəddəratını təyinetmə prinsipi” terminindən istifadə edirlər. İ.İ.Lukaşuk isə “xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi” termininə üstünlük verir. J.R.Krouford “öz müqəddəratını təyinetmə

prinsipi" anlayışından, V.Q.Vitsum isə "xalqların öz müqəddəratını təyinetmə hüququ" terminindən istifadə edir. Y. Brounli "öz müqəddəratını təyinetmə prinsipini" "öz müqəddəratını təyinetmə hüququ" ilə eyniləşdirir. Fransız hüquqşünası Nquen Kuok Din hesab edir ki, öz müqəddəratını təyinetmə prinsipi xalqların öz müqəddəratını təyinetmə hüququna əsaslanır. Ukraynalı beynəlxalq hüquqşünas L.D.Timçenko hər iki termindən istifadə edir. A.A. Merejko qeyd edir ki, bir sıra müəlliflər bu anlayışları eyniləşdirir, digərləri isə guman edirlər ki, öz müqəddəratını təyinetmə hüququ daha geniş anlayışa - öz müqəddəratını təyinetmə prinsipinə əsaslanır.

Bu iki kateqoriya terminologiya baxımından bir-birinə yaxındır. Öz müqəddəratını təyinetmə prinsipi onun həyata keçirilməsinin ümumi rəhbəredici başlangıcları müəyyən edir, öz müqəddəratını təyinetmə hüququ isə bu prosesinin həyata keçirilməsini tənzimləyən hüquq normaların məcmuəsini təşkil edir. BMT Nizamnaməsində xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə hörmət edilməsi əsasında dövlətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək zərurəti haqqında deyilir. Bu prinsip haqqında BMT Nizamnaməsinin 55-ci maddəsində də deyilir. Göründüyü kimi bu beynəlxalq hüquq aktda söhbət məhz xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipindən gedir. Bizim fikrimizcə, bu daha dəqiqdir.

Azərbaycan və xarici hüquq ədəbiyyatında bu prinsipin anlayışının müxtəlif şərhləri verilir.[13,14,15,16,17] Lakin bütün bu anlayışların

---

[13] İbayev, V.Ə. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində / V.Ə. İbayev. - Bakı: Elm, - 2006. - s.321-322

[14] Hüseynov, L.H. Bynəlxalq hüquq. Dərslik / L.H. Hüseynov. - Bakı: Qanun Nəşriyyatı nəşrıyyatı, - 2012. - s.40

[15] Курс международного права. В 7 т. Т. 2. Основные принципы международного права / Г.В. Игнатенко, В.А. Карташкин, Б.М. Клименко и др. – М.: Наука, - 1989. - с. 169

[16] Международное публичное право: учебник. / Л.П. Ануфриева, К.А. Бекяшев, Е.Г. Моисеев, В.В. Устинов [и др.], М.: Проспект, - 2009. - с. 136

[17] Bledsoe, R. The International Law Dictionary. / R. Bledsoe, B. Boczek - Oxford: ABC-CLIO, - 1987. - p. 54

diqqətlə tədqiq edilməsi belə bir nətəcə gəlməyə imkan verir ki, onlar, bütövlükdə 14 dekabr 1960-cı il tarixli Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında Bəyannaməsinə, 16 dekabr 1966-cı il İnsan hüquqları haqqında Paktlarına, və həmdə 24 oktyabr 1970-ci il beynəlxalq hüquq prinsipləri haqqında Bəyannaməsinə, 1975-ci il Helsinki Yekun aktına və s. kimi beynəlxalq sənədlərə əsaslanırlar. Bu sənədlərə müvafiq olaraq xalqların bərabərliyi və öz məqəddaratını təyin etmə prinsipi anlayışı altında bütün xalqların xaricdən müdaxilə olmadan öz siyasi statusunu və öz iqtisadi, sosial və mədəni inkişafını azad müəyyən etmək hüququ başa düşülür. Fikrimcə, bu tərif bütövlükdə xalqların hüquq bərabərliyi və öz məqəddaratını təyin etmə prinsipinin əsas anlayışını daha dəqiq ifadə edir.

*"**Beynəlxalq hüquqda xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin formalaşmasının əsas mərhələləri"*** adlanan ***IIci fəslin ikinci yarımfəslində*** xalqların hüquq bərabərliyi və öz məqəddaratını təyin etmə prinsipin formalaşmasının prosesi araşdırılır.

T.M.Frank öz müqəddəratını təyinetmənin hələ müasir dövrə qədər (pre-modern times) mövcud olmasını iddia edir.[18] Öz müqəddəratını təyinetmə konsepsiyasının formalaşmasına səbəb olan ideyalar Qərbi Avropanın siyasi fikrində, xüsusən J.Lokkun və J.J. Russonun əsərlərində əmələ gəlmişdir. Bu prinsipinin formalaşması birbaşa Amerika və Fransa inqilabları zamanında XVIII əsrdə Avropada inqilabi hərəkətin təsiri altında millətlərin formalaşması və təşəkkülü dövrü ilə bağlı idi.[19] M.Şou yazır ki, öz mənşəyini milliyyət və demokratiya konsepsiyasından götürən bu prinsip əsasən Avropada inkişaf edirdi və ilk dəfə əsas formasında I-ci Dünya müharibəsindən sonra əmələ gəlmişdir. Prezident Vilsonun səylərinə baxmayaraq o ML-nın Nizamnaməsinə daxil edilməmişdir və ona

---

[18] Franck, T.M. Fairness in International law and Institutions / T.M. Franck. - Oxford: Clarendon Press, - 1995. - p. 92

[19] Динь, Н.К, Дайе, П., Пелле, А. Международное публичное право: в 2-х т. Т. 1: Кн. 1: Формирование международного права. Кн. 2: Международное сообщество / Н.К Динь, П. Дайе, А. Пелле. Пер. с фр. К.: Сфера, - 2000. - с. 27

aşkar surətdə hüquq prinsipi kimi baxılmırdı.[20] J. Krouford qeyd edir ki 1945-ci ilə qədər bu prinsipin inkişafı çox az olmuşdur.[21] Bu dövrdə öz müqəddəratını təyinetmə prinsipi öz müqavilə-hüquqi əksini də tapmamışdır.

BMT Nizamnaməsi xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin təsdiqlənməsi prosesində əsas hüquqi sənəd kimi çıxış edir. Beynəlxalq praktikada bu prinsip əsasən müstəmləkəçilikdən azad olunma prosesi kontekstində təfsir olunurdu. Belə anlaşma BMT BM-nin "Müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət verilməsi haqqında" 14 dekabr 1960-cı il tarixli Bəyannaməsində əks olunmuşdur. Bu prinsipinin antimüstəmləkəçilik məzmunu beynəlxalq hüquq prinsipləri haqqında 24 oktyabr 1970-ci il Bəyannaməsində təsdiqlənmişdir. Öz müqəddəratını təyinetmə prinsipinin hüquqi əsası metropoliya statusundan fərqli olan müstəmləkə ərazisi statusunun mövcüdluğudur. Sonralar bu prinsip həmçinin irqçilik rejimlərinin əsarəti altında olan xalqlara da aid tanınmışdır (14 dekabr 1974-cü il tarixli "Təcavüzün tərifi haqqında" BMT BA qətnaməsi, 12 avqust 1949-cu il tarixli Jeneva konvensiyalarına I-ci Əlavə protokol və d.) Bütövlükdə, həm BMT Nizamnaməsində, həmçinin BMT-nin sonrakı aktlarda bu prinsipin antimüstəmləkə anlayışı əks olunub. BMT Beynəlxalq Məhkəməsi də Namibiyaya dair iş üzrə 21 iyun 1971-ci il tarixli[22], Qərbi Saxaranın statusuna dair 16 oktyabr 1975-ci il tarixli[23] məşvərətşi rəylərində və d. xalqların öz müqəddəratını təyinetmə prinsipini müstəmləkəçilikdən azad olunma prosesini nizamlayan prinsip kimi təsdiqlədi.

---

[20] Shaw, M.N International law / M.N. Shaw. Sixth edition. Cambridge: Cambridge University Press, -2008. - p. 251

[21] Crawford, J.R. The Creation of States in International Law / J.R. Crawford. 2nd edn. – Oxford, New York, - 2007, - pp. 11-112

[22] Legal consequences for states of the continued presence of South Africa in Namibia (South West Africa) Notwithstanding Security Council resolution 276 (1970), Advisory Opinion of 21 June 1971 // Reports of the International Court of Justice, 1971, p. 16.

[23] Western Sahara. Advisory Opinion of 16 October 1975 // Reports of the International Court of Justice, 1975, p. 12

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, beynəlxalq hüquqi sənədlərdə xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin məqsədi müstəmləkə millətlərin və xalqların və həmçinin irqiçilik rejimlərin və xarici hökmranlığın digər formaları altında olan xalqların müstəqillik əldə olunmasından ibarət idi.

***"Beynəlxalq hüquq doktrinasında xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi"*** adlanan ***II-ci fəslin üçüncü yarımfəsli*** bu prinsipə dair beynəlxalq hüquq nəzəriyyəsində müxtəlif konsepsiyaların araşdırılmasına həsr edilib.

Qeyd etmək lazımdır ki, Qərb beynəlxalq hüquq ədəbiyyatında hüquq prinsipi kimi xalqların öz müqəddəratını təyinetmə prinsipinə münasibət uzun müddət çox kritik idi. Y.Brounli 1945-ci ilə kimi öz müqəddəratını təyinetmə prinsipi haqqında məlumatlara çox az rast gəlməsini qeyd edərək, bununla yanaşı vurğulayır ki: "*Son vaxtlara kimi qərb alimlərinin çoxu bu prinsipin sadəcə uğursuz ifadə olunmuş mənəvi-siyasi ideyanın olması və onun hüquqi məzmununun olmaması prezumpsiyasından və ya dərin inamından çıxış edirdilər*".[24] J. Fitsmoris, B.Rivlin, K.İqlton kimi Amerika alimləri, ingilis hüquqşünası A.Kobban, fransız alimləri Ş. Vişer, M.Siber və d. ya onun mövcüd olmasını, ya da onun hüquqi mahiyyətə malik olmasını inkar edirdilər.

"Soyuq müharibə" dövründə, Şərq-Qərb qarşıdurması şəraitində xalqların öz müqəddəratını təyin etmə prinsipinin təfsiri çox siyasiləşdirilmişdir. Buna görə sovet hüquq ədəbiyyatında xalqların öz müqəddəratını təyin etmə prinsipinə bütövlükdə hüquqi prinsip kimi baxılırdı. Digər tərəfdən bir çox Qərb alimləri bu prinsipin hüquqi xarakter daşımasını etiraf edirlər. Y.Brounli qeyd edir ki, bu prinsipin ümumi xarakteri, və həm də onun siyasi aspekti onu hüquqi məzmundan məhrum etmir. Bu prinsipi hüquqi olmasını etiraf edən müəlliflər arasında o J.Ssel, J.Q.Stark, K.Rayt,V.Venqler kimi hüquqşünasları göstərir. M. Koskeniemi qeyd edir ki, 1970-ci illərin sonuna dərsliklərin çoxunda öz müqəddəratını təyinetməyə pozitiv beynəlxalq hüquqda əks olunmuş hüquqi prinsip və ya hüquq

---

[24] Броунли, Я. Международное право / Я. Броунли. В 2-х кн. Кн. 2. - М.: Прогресс, - 1977. - с. 295

nöqteyi-nəzərindən baxılır.[25] Bununla yanaşı, hətta bu prinsipin hüquqi kimi tanınması tərəfdarları onun müstəsta olaraq antimüstəmləkə yönümlü olmasını vurğulayırlar. M.Şou, E.Ost, İnsan hüquqları üzrə BMT Komissiyasının Ayrı-seçkiliyin qarşısının alınması və azlıqların müdafiəsinə dair Altkomissiyasının məruzəçiləri Qektor Qross Espiel, A.Eyde və d. qeyd edirlər ki, müstəmləkə ərazilərində və ya BMT Nizamnaməsinin qəbulundan sonra qurulmuş qanunsuz xarici işğal rejimi şəraitində yaşayan xalqlar aşkar öz müqəddəratını təyinetmə hüququna malikdirlər. Əsasən belə yanaşma postsovet ölkələrinin beynəlxalq hüquq ədəbiyyatında da əks olunub (Q.V. İqnatenko, S.V.Çerniçenko, İ.İ.Lukaşuk, T.Y.Xabriyeva və d.)

Belə konseptual yanaşmada keçmiş Dağlıq Qarabağ ətrafında münaqişənin tənzimlənməsi probleminə müstəmləkəçilikdən azad olunma prosesi kontekstində baxmaq hüquqauyğun deyil və mümkünsüzdür. Azərbaycan heç bir vaxt müstəmləkəçi dövlət olmayıb, əksinə Türkmənçay və Gülistan müqavilələri, Rusiya imperiyası tərəfindən, Qarabağ regionu daxil olmaqla, Azərbaycanın bütün torpağlarının işğalını və müstəmləkələşdirilməsini hüquqi cəhətdən rəsmiləşdirdi. A.A. Merejko qeyd edir ki, Dağlıq Qarabağda silahlı münaqişəni "Dağlıq Qarabağ xalqının milli-azadlıq müharibəsi" kimi təqdim etmək cəhdi çox şübhəli olardı, çünki nə beynəlxalq birlik nə də BMT heç bir vaxt Dağlıq Qarabağa Azərbaycan tərəfindən "müstəmləkə hökmranlığının" və ya "xarici işğalın" altında olan ərazi kimi baxmırdı.[26] Heç də təsadüfi deyil ki AŞ-nın Baş katibi Terri Devis Ermənistana öz rəsmi səfəri zaman, "Sizə necə gəlir, hansısa bir zaman Azərbaycan, öz zamanında Böyük Britaniya öz müstəmləkələrinin itirilməsi ilə barışdığı kimi, Qarabağın itirilməsi ilə barışacaqmı?" sualına cavab verdi ki: "Mən

---

[25] Koskenniemi, M. National Self-determination Today: Problems of Legal Theory and Practice // - International and Comparative Law Quarterly, 1994. - Volume 43, Issue 02, - pp. 242

[26] Мережко, А.А. Проблема Нагорного Карабаха и международное право / А.А. Мережко. - К.: Издательский дом Дмитрия Бураго. - 2013. - с. 60

düşünürəm ki, burada böyük bir fərq var. Qarabağ müstəmləkə deyil, Azərbaycanın bir hissəsidir”.[27]

Beləliklə, müasir beynəlxalq hüquq doktrinasında sesessiya formasında öz müqəddəratını təyinetmə prinsipi müstəmləkə xalqlarının müstəmləkəçilikdən azad olunma prosesi kontekstində və həmçinin rasist rejimlərinin zülmü və ya xarici hökmranlığının digər formaları altında olan xalqlara aid qəbul edilir. Sesessiya formasında xalqların öz müqəddəratını təyinetmə prinsipinın Ermənistan-Azərbaycan münaqişəsinə hec bir aidiyyatı yoxdur və ona aid tətbiq oluna bilməz.

***“Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə hüququnun subyektləri”*** adlanan ***II-ci fəslin dördüncü yarımfəslində*** öz müqəddəratını təyinetmə hüququ daşıyıcısının kim olması problemi tədqiq edilir. Bu anlayış altında yanlız dövlətin vətəndaşlarını əhatə etmək lazımdır və ya “xalq” anlayışının məzmunu altında dövlətin ərazisində yaşayan müxtəlif etnik və ya milli qrupları başa düşmək lazımdır? Bir sıra müəlliflər (Q.İ.Tunkin,[28] İ.İ.Lukaşuk,[29] J.Sammers[30]) qeyd edirlər ki, öz müqəddəratını təyinetmə prinsipin subyekti həm xalq, həmdə millətdir. Digər tərəfdən, aydındır ki, “xalq” və “millət” anlayışları öz məzmununa görə fərqlidirlər. Onlar nəzəri cəhətdən, əgər bu və ya digər dövlətdə əhali bütövlükdə monoetnikdirsə, üst-üstə düşə bilərlər. Lakin müasir dünyada onun qlobalizasıyası və miqrasiya proseslərinin inkişafı ilə, demək olar ki, faktiki olaraq, nadir istisna ilə, belə dövlətlər yoxdur. Məsələn, belə monoetnik dövlətlərə öz ərazisində Azərbaycanlı əhalisinin etnik təmizlənməsini həyata keçirmiş Ermənistanı aid etmək olar. Beynəlxalq hüquqda bu

---

[27] Тэрри Дэвис сравнил «выборы» в Карабахе с парадом сексуальных меньшинств // http://www.Day.az. 8 ноября 2007

[28] Тункин, Г.И. Теория международного права / Г.И. Тункин. - М.: Издательство " Зерцало ", - 2000. - с. 51-58

[29]Лукашук, И.И. Международное право. Общая часть. / И.И. Лукашук. - М.: Волтерс Клувер, - 2005. - с. 317-318

[30] Summers, J.J. Peoples and International Law. How Nationalism and Self-Determination Shape a Contemporary Law of Nations. / J.J. Summers. - Brill - Nijhoff; 2nd edition, - 2014. - p. 1-2

hüququn subyektlərinin çərçivəsi dəqiq müəyyəşləşdirilib. Xalqlar, dövlətlərə mənsub olan beynəlxalq hüquqqabiliyyətinə malik deyillər. Buna görə hüquq ədəbiyyatında xalqın öz müqəddəratını təyinetmə hüququna subyektiv hüquqları olmayan hüquqi vəziyyət kimi baxılır.[31] BMT Nizamnaməsində əks olunmuş öz müqəddəratını təyinetmə prinsipinin subyekti "xalqlardır" ifadəsini uğurlu hesab etmək olar. A.Eyde qeyd edir ki, "xalq" sözü tam müəyyənliklə ayrı-ayrı etnoslar və ya dini qruplar yox, bütün xalq, "demos" deməkdir.[32] "Xalq" və "millət" anlayışları, hüquqi yox, sosioloji və siyasi anlayışlardır, bu hal isə bu kateqoriyaların hüquqi mahiyyətinin müəyyən edilməsini problematik edir. "Xalq" kateqoriyası ilə dövlətin bir ərazisində və ya beynəlxalq statusa malik olan öz müqəddəratını təyin edən ərazidə yaşayan müxtəlif millətlərin, milli azlıqların, yerli xalqların, etnik qrupların və dini və s. əlamətlərə görə fərqlənən əhali qruplarının cəmi əhatə oluna bilər. Bəs "xalq" və "milli azlıq" kateqoriyaları arasında nisbət necədir?

Qeyd etmək lazımdır ki, 16 dekabr 1966-ci il Vətəndaşlıq və Siyasi hüquqlar haqqında Beynəlxalq Paktda, BMT BA-nın 18 dekabr 1992-ci il 47/135 nömrəli qətnaməsi ilə qəbul edilmiş milli və ya etnik, dini və dil azlıqlarına mənsub olan şəxslərin hüquqları haqqında Bəyannamədə, Milli azlıqların müdafiəsi haqqında AŞ-nın çərçivə konvensiyasında, Xelsinki Yekun aktında və s. "etnik, dini azlıqlar, dil azlıqları və milli azlıqlar" terminləri istifadə olunur. Bununla belə, beynəlxalq sənədlərdə də "azlıq", kateqoriyasının tərifi yoxdur. Beynəlxalq hüquq "xalq" və "azlıq" anlayışları arasında hüquqi sərhəd keçirir, çünki azlıqlar, xalqlardan fərqli olaraq, sesessiya formasında öz müqəddəratını təyinetmə hüququna malik deyillər.

---

[31] Международное право / Вольфганг Граф Витцум и др., пер. с нем. М.: Инфотропик Медиа, - 2011. с. 223

[32] What about the right of peoples to self-determination? // Possible ways and means of facilitating the peaceful and constructive solution of problems involving minorities: final report prepared by Mr. Asbjorn Eide, p.18 // E/CN.4/Sub.2/1993/34 (10 August 1993)

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, öz müqəddəratını təyinetmə prinsipin həyata keçirilməsinin subyekti müstəsna olaraq bütün xalqdır. Müxtəlif azlıqlar (milli, etnik, dil, dini və s.) sesessiya formasında bu prinsipin həyata keçirilməsi subyekti deyillər. Keçmiş Dağlıq Qarabağda yaşayan erməni icması Azərbaycanda etnik azlıqdır. Deməli, o sesessiya formasında xalqların öz müqəddəratını təyinetmə prinsipinin həyata keçirilməsi subyekti deyil.

**III fəsil "Dövlətllərin ərazi bütövlüyü və xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin qarşılıqlı əlaqəsi probleminin əsas doktrinal konsepsiyaları"** adlanır və 4 yarımfəsildən ibarətdir.

***"Beynəlxalq hüququn əsas prinsipləri sistemində ierarxiyanın mövcüdluğu problemi"*** adlanan ***birincə yarımfəsildə*** beynəlxalq hüququn bir əsas prinsiplərinin digərlərin üzərində prioritetinin mümkünlüyü və əsaslığı problematikası araşdırılır. Beynəlxalq hüququn əsas prinsipləri sistemində bəzi ierarxiya əlamətlərinin mövcüdluğu heç bir sual döğurmur. Belə ki, İ.İ. Lukaşuk beynəlxalq hüququn əsas prinsipləri sistemində mərkəzi yeri güc tətbiq etməmə prinsipinə ayırır. L. Ferdros və B. Simmanın fikrincə, güc tətbiq etmənin qadağan edilməsi beynəlxalq hüquqda fundamental dəyişiklikdir.[33] Beynəlxalq hüquq doktrinasında bir sıra müəlliflər bir prinsiplərin digərləri üzərində üstünlüyün mümkünlüyü haqqında danışmağı tamamilə əsaslı olduğunu hesab edirlər. O cümlədən xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə və dövlətlərin ərazi bütövlüyü prinsiplərinə dair üstünlük imkanı haqqında da deyilir. Beynəlxalq hüquq doktrinasında dövlətlərin ərazi bütövlüyü və xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipləri nisbətinin və qarşılıqlı əlaqəsinin əsas konsepsiyaları ya onların birinin digərinin üzərində prioriteti konsepsiyasından, ya da onların eyni hüquqi qüvvəyə malik olması konsepsiyasından ibarətdir.

***"Beynəlxalq hüquqda dövlətlərin ərazi bütövlüyü prinsipinin üstünlüyü konsepsiyasi"*** adlanan ***ikinci yarımfəsil*** bu konsepsiyanın məzmununun tədqiq edilməsinə həsr edilib.

---

[33] Verdross A., Simma B. Universelles Volkerrecht. Theorie und Praxis. Berlin: Duncker & Humblot, 1999, s. 467

Bu konsepsiya əsasən bir sıra beynəlxalq sənədlərin mövcüdluğuna əsaslanır. Müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət verilməsi haqqında" 1960-cı il 14 dekabr tarixli Bəyannamədə ölkənin milli birliyinin və ərazi bütövlüyünün qismən və ya tamamilə pozulmasına yönəlmiş hər bir cür cəhdin BMT Nizamnaməsinin məqsədləri və prinsiplərinə uyğun gəlməməsi haqqında birbaşa nəzərdə tutulan müddəa əks olunub. L.V. Speranskaya[34] və J. Krouford[35] bu müddəanı "önləyici klauzula", adlandırırlar, V.A.Romanov isə onu antiseparatist adlandırır.[36] Mahiyyətcə analoji müddəa 1970-ci il beynəlxalq hüquq prinsipləri haqqında Bəyannamədə və həmdə 2007-ci ildə qəbul olunmuş Yerli xalqların hüquqları haqqında BMT Bəyannaməsində də əks olunub. İ.İ.Lukaşuk belə bir rəyə gəlir ki: "Öz müqəddəratını təyinetmə prinsipindən sui-istifadə ərazi bütövlüyü prinsipi ilə məhdudlaşdırılmışdır". M.Şou vurğulayır ki, 1970-ci il beynəlxalq hüquq prinsipləri haqqında bəyannamədə əks olunmuş və 1993-cü il insan hüquqları üzrə Vyana bəyannaməsində təkrarlanmış klauzuladan ərazi bütövlüyü prinsipinin üstünlüyünü müəyyən etmək olar.

Yuxarıda deyilənləri xülasə edərək, belə bir nəticəyə gəlmək olar ki, beynəlxalq hüquq doktrinasında müəlliflərin əksər çoxluğu bu problematikanın araşdırılmasında dövlətlərin ərazi bütövlüyü prinsipinin üstünlüyü konsepsiyasına tərəfdar çıxırlar.

"*Beynəlxalq hüquqda xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin üstünlüyü konsepsiyasi"* adlanan *III-cü fəslin üçüncü yarımfəslində* bu konsepsiyanın məzmunu və əsas ünsurları tədqiq edilir. Q.M. Melkov iddia edir ki: "...xalqın suverenliyi, onun azad şəkildə öz müqəddəratını təyinetmə hüququ – mütləqdir, ilkindir, çünki məhz xalq ilkindir, dövlət isə -

---

[34] Сперанская, Л.В. Принцип самоопределения в международном праве. / Л.В. Сперанская. - М.: Госюриздат, - 1961. - с. 108

[35] Crawford, J.R. The Creation of States in International Law, 2nd edn. - Oxford, New York. – 2007. - p. 118

[36] Романов, В.А. Принцип самоопределения и территориальная целостность государств // - М.: Дипломатический вестник, - 2000, № 9, - с. 68

törəmədir, xalqın iradəsindən asılıdır”. D.V. Malov belə bir fikir irəli sürür ki, müasir beynəlxalq hüquq mənbələrində dövlətlərin ərazi bütövlüyü prinsipi mövcüd deyil. Bütövlükdə dünyada 5000 civarında müxtəlif etnoslar, etnik qruplar, milli azlıqlar, yerli xalqlar yaşayır və onların 90%-dən çoxu çoxmilli dövlətlərin tərkibindədir. Müasir dövlətlərin çoxu – polietnikdir. Məsələn, Hindistanda bir neçə yüz etnik birliklər yaşayır, İndoneziyada onların sayı 150-dən, Keniyada isə 70-dən çoxdur və s. Müxtəlif etnik qrupların, milli azlıqların, yerli xalqların və s. sesessiya hüququnun tanınması dövlətlərarası münasibətlərin tam kollapsına gətirə bilərdi. Məqsədləri hər bir cür vasitələrlə Azərbaycan torpaqlarının – keçmiş Dağlıq Qarabağın və ona bitişik digər rayonların işğalını əsaslandırmaq üçün müxrəlif konstruksiyaları uyduran bir sıra erməni müəllifləri də analoji mövqe tuturlar. Belə ki, Y.Q. Barseqov “ayrılma azadlığına” “xalqlar arasında münasibətlərdə demokratizmin ali ifadəsi” kimi baxır. Digər erməni müəllifi T.Torosyan sərhədlərin pozulmazlığı (ərazi bütövlüyü) prinsipinin və millətlərin öz müqəddəratını təyinetmə prinsipinin tamamilə müxtəlif statuslara malik olmasına (əgər birincisi yanlız siyasi prinsipdirsə, ikincisi - həmdə beynəlxalq hüquq normasıdır) dair ideyanı əsaslandırmağa çalışır. Qeyd etmək lazımdır ki, bu konsepsiyanın üstünlüyünə dair heç bir beynəlxalq hüquqi sənəd və ya akt, və həmçinin praktika mövcüd deyil. Dövlətlərin ərazi bütövlüyü prinsipinin beynəlxalq hüququn əsas prinsiplərindən olmasını BMT Beynəlxalq Məhkəməsinin praktikasında[37] və beynəlxalq hüquq doktrinasında da göstərilmişdir. M. Şou qeyd edir ki, “...ərazi bütövlüyü prinsipi həmişə beynəlxalq hüququn əsas prinsipi kimi qəbul və bəyan edilirdi”.[38] Beynəlxalq hüquq sahəsində aparıcı dünya mütəxəssisləri T. Frank, R. Xiqqins, A. Pelle, M. Şou və K. Tomuşat qeyd edillər ki: “Müasir beynəlxalq hüquqda çox az sayda

[37] Case Concerning Military and Paramilitary Activities in and against Nicaragua (Nicaragua v. United States of America), 1986-06-27 // Jurisdiction and Admissibility, Judgment, I.C.J. Reports 1984, p. 392.
[38] Shaw, M.N. Peoples, Territorialism and Boundaries // European Journal of International Law, - 1997, № 3, - p. 483

prinsiplər var ki, onlar dövlətlərin ərazi bütövlüyü kimı bərk kök salmış olsunlar. O dövlətin öz anlayışı ilə bağlı köhnə prinsip olsada, təntənəli və son əlli ildə xüsusən inandırıcı olaraq təsdiqlənmişdir”.[39]

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin prioriteti konsepsiyanın beynəlxalq hüquqi bazası yoxdur. Elmi doktrinada bu konsepsiyanın tərəfdarları çox azdır və onlar bütövlükdə bir neçə rus və erməni müəllifləri ilə təmsil olunub. Bu konsepsiyanın formalaşması əsasən Abxaziyanın, Cənubi Osetiyanın Gürcüstandan, Dnestryanının Moldovadan, Krımı və Cənub-Şərq Ukraynanı isə Ukraynanın özündən zorla alınmasına və həmçinin erməni müəlliflərinin Ermənistan tərəfindən Azərbaycanın torpaqlarının və digər ərazilərinin işğalına haqq qazansırmaq cəhdləri ilə bağlıdır.

***“Dövlətlərin ərazi bütövlüyü və xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin bərabər hüquqi qüvvəyə malik olması konsepsiyası”*** adlanın ***dördüncü yarımfəsildə*** bu doktrinanın xüsusiyyətləri, məzmunu və əsas parametrləri araşdırılır. Tamamilə aydındır ki, beynəlxalq hüquq prinsipləri dövlətlərarası münasibətlərin tənzimlənməsinin ümumi standartlarının müəyyən edilməsinə yönəlib. Beynəlxalq hüququn əsas prinsipləri bir-birisi ilə qarşılıqlı bağlı və bir-birisinə müvafiq olmalıdır. Onların şərhi və praktiki tətbiqi sistemli xarakter daşımalıdır. Əks halda hər hansı bir beynəlxalq hüquqi tənzimləmədən danışmaq yersizdir. Buna görə dövlətlərin ərazi bütövlüyünün və öz müqəddəratını təyinetmə prinsiplərin bir-birinə zidd olması haqqında danışmaq əsassızdır və hüquqauyğun deyil. Lakin bu və əsasən düz olan müddəanı bir sıra müəlliflər özünəməxsus tərzdə şərh edirlər. Belə ki, S.V. Çerniçenko ərazi bütövlüyü prinsipini dövlətlərarası münasibətlər sahəsinə, xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipini isə xalq, xalqın bir hissəsi və dövlət arasında yaranan münasibətlərə aid

---

[39] Franck, T.M. The Territorial Integrity of Quebec in the Event of the Attainment of Sovereignty.Report prepared for Québec's Ministère des relations internationales, 1992 / T.M., Franck, R.Q.S. Higgins, A.Pellet, M.N. Shaw, Ch. Tomuschat//english.republiquelibre.org/Territorial_integrity_of_Quebec_in_the_event_of_the_attainment_of_sovereignty

edir.[40] Oxşar mövqeni, lakin dövlət sərhədlərin pozulmazlığına dair Q.M. Velyaminov tutur.[41] Analoji mövqeni demək olar ki bütün erməni əsilli müəlliflər tuturlar. Onlar yanlız Ermənistanın Azərbaycana qarşı təcavüzünə bəraət qazandırmağa və öz müqəddəratını təyinetmə pərdəsi altında Ermənistan tərəfindən Azərbaycan torpağlarının işğalının hüquqauyğunluğunu sübut etməyə çalışırlar. Lakin hüquqi baxımdan belə iddiaların əsassızlığı aydın görünür. Bəlli olunduğu kimi beynəlxalq hüququn nizamlanması predmeti dövlətlərarası münasibətlərdir. Dövlətdaxili münasibətlər dövlətlərin daxili səlahiyyətlərinə aiddir və onların milli hüququnun tənzimlənməsi predmetidir. Əgər ehtimal etsək ki, xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi dövlət və öz müqəddəratını təyinetmə vahidi arasında münasibətlərə aidddir, onda belə çıxır ki, bu prinsip digər dövlətlərin daxili işlərinə qarışmama prinsipini pozur. Digər tərəfdən, bu halda həmdə iddia etmək olar ki xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi beynəlxalq hüquq prinsiplərinə aiddiyyatı yoxdur, və o dövlətdaxili hüququn prinsipidir, bu isə əlbəttə ki, yanlışdır.

Yuxarıda göstərilənlərdən belə bir nəticəyə gəlmək olar ki, dövlətlərin ərazi bütövlüyü və xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipləri bir-birinə zidd deyil. Onlar müxtəlif tətbiqetmə sahələrinə malikdirlər və məzmunundan irəli gələn müxtəlif rəhbəredici başlanğıcları və standartları müəyyən edirlər.

**IV fəsil – "Yeni dövlətlərin yaranmasında dövlətlərin ərazi bütövlüyü və xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərinin qarşılıqlı əlaqəsi"** adlanır və **dörd yarımfəsildən** ibarətdir.

***"Müasir beynəlxalq hüquqda yeni dövlətlərin yaranmasının hüquqauyğun üsulları"*** adlanan ***birinci yarımfəsildə*** yeni

---

[40] Черниченко, С.В. Принцип самоопределения народов (современная интерпретация) // - М.: МЖМП, - 1996. № 4, - с. 18-19

[41] Вельяминов, Г.М. Соотношение принципов самоопределения народов и территориальной целостности, а также проблемы признания // - М.: Государство и право, - 2010. № 10, - с. 103

dövlətlərin yaranmasının hüquqauyğun vasitələri tədqiq edilir və onların elmi təsnifatı aparılır. Beynəlxalq hüquq yeni dövlətlərin yaranmasının bir neçə hüquqauyğun vasitələrini tanıyır.

*1.Bu və ya digər xalqın öz müstəqil dövlətinin yaradılması hüququnun dövlətlərin dünya birliyi tərəfindən tanınması.* Məsələn, bu müddəa öz dövlətinin yaradılması hüququ BMT tərəfindən tanınmış ərəb Fələstin xalqının yaşadığı əraziyə tətbiq oluna bilər. Belə ki, BMT BA özünün 29 noyabr 1947-ci ildə qəbul etdiyi qətnaməsində Fələstin ərazisində iki dövlətin, ərəb və yahudi dövlətlərinin yaradılmasını birbaşa nəzərdə tutur. Bilindıyı kimi, yahudi dövləti yaradılmış, Fələstin dövləti isə yaradılmamışdır. BMT BA ərəb Fələstin dövlətinin yaradılması hüququnu özünün bir sıra sessiyalarında tanımışdır. Bu hüquq Divarın tikilməsi haqqında iş üzrə BMT Beynəlxalq Məhkəməsinin məşvərətçi rəyində də qeyd eilmişdir.[42] Fələstin dövlətinin müstəqilliyini 1 yanvar 2017-cı ilə BMT 193 üzv-dövlətindən 136-sı tanıyıb.

*2. "Ana dövlətinin" buna razılıq verməsi yeni dövlətlərin hüquqauyğun yaranması üsuludur.* J.Krouford qeyd edir ki, əgər sələf-dövlət buna müqavimət göstərirdisə, ayrılmaq cəhdləri, bir qayda olaraq, uğurlu olmurdu.[43] Dövlətin belə üsulla yaranmasına beynəlxalq praktikada da rast gəlmək olar (Efiopiyanın Eritreyanın müstəqilliyinə, Sudanın Cənubi Sudanın müstəqilliyinə, Malayziyanın Sinqapurun müstəqilliyinə razılıq verməsi və s.)

3. *Yeni müstəqil dövlətlərin yaranmasının hüquqauyğun üsullarından biri də, müəyyən şərtlərin mövcüd olması ilə onların ana dövlətinin parçalanması nəticəsində yaranmasıdır.* Bir sıra hüquqşünaslar ayrılma hüququnu yanlız müstəsna hallarda, müəyyən şərtlər olduqda tanıyırlar.[44,45] Bu müddəa hüquq doktrinasında

---

[42] Legal Consequences of the Construction of a Wall in the Occupied Palestinian Territory. **Advisory Opinion of 9 July 2004** // Reports of the International Court of Justice, 2004, p. 136.

[43] Crawford, J.R. State Practice and International Law in Relation to Secession //-BYIL, - 1998. - p. 85–117.

[44] Черниченко, С.В. Принцип самоопределения народов (современная интерпретация) // - М.: Московский журнал международного права, - 1996. № 4, - с. 5

ümumqəbulolunmuşdur və ona əsasən Sovet İttifaqı dağıldıqdan sonra SSRİ-nin tərkibindən çıxmaq hüququna malik olan müttəfiq respublikalar tərəfindən suveren müstəqil dövlətlərin yaranması beynəlxalq hüquqa uyğundur. Bu müddəa SFYR 1974-cü il Konstitusiyasına uyğun olaraq ana dövlətin tərkibindən ayrılmaq konstitusiya hüququ olan SFYR keçmiş respublikalarına aid də ədalətlidir. 27 oktyabr 1968-ci il tarixli "Çexoslovakiya Federasiyası haqqında konstitusiya qanunu" ilə eyni hüquqlar Çexiya və Slovakiyaya verilmişdir, bu da Çexoslovakiyanın bölünməsində hüquqi baza kimi istifadə olunmuşdur. Serbiya və Monteneqronun iki müstəqil dövlətlərə bölünməsinin hüquqi əsasını 2003-cü ilin fevralında qəbul olunmuş Serbiya və Monteneqronun Konstitusiya Xartiyasının 60-cı m. təşkil etmişdir.

***"Beynəlxalq hüquqda xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin həyata keçirilməsi nəticəsində yeni dövlətlərin yaranması"*** adlanan ***4-cü fəslin ikinci yarımfəslində*** bu prinsipin həyata keçirilməsində yeni dövlətlərin yaranmasının xüsusiyyətləri və şərtləri tədqiq olunur. Beynəlxalq praktikada və ilk növbədə BMT praktikasında xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi müstəmləkəçilikdən azad olunma prosesi kontekstində şərh edilirdi. Beynəlxalq hüquq doktrinasında da məsələ analoji həll edilir. (Q.V. İqnatenko və O.İ. Tiunov[46], A. Eyde[47], Gross Espiel[48], M. Şou[49]).

---

[45] Possible ways and means of facilitating the peaceful and constructive solution of problems involving minorities. 2nd progress report: submitted by Asbjorn Eide // E/CN.4/Sub.2/1992/37 (1 July 1992)

[46] Международное право: Учебник для вузов. / Отв. ред. проф. Г.В. Игнатенко и проф. О.И. Тиунов.- М.:Издательство Норма, - 2002. - с. 82

[47] Possible ways and means of facilitating the peaceful and constructive solution of problems involving minorities. 2nd progress report: submitted by Asbjorn Eide // E/CN.4/Sub.2/1992/37 (1 July 1992), p.35

[48] The Right to Self-Determination: Implementation of United Nations Resolutions. Study prepared by Hector Gros Espiell Special Rapporteur of the Sub-Commission on Prevention of Discrimination and Protection of Minorities // U.N. Doc. E/CN.4/Sub.2/405/Rev.l, p. 13-14

[49] Shaw, M.N. International law / M.N.Shaw. Sixth edition. Cambridge: Cambridge University Press, -2008. - p. 256

Beynəlxalq hüquq prinsipləri haqqında 1970-ci Bəyannaməsinə əsaslanaraq hüquq ədəbiyyatında bir neçə müəllif tərəfindən belə bir fikir irəli sürülmüşdür ki, müəyyən ərazinin ana dövlətindən ayrılması haqqında məsələ yanlız dövlət xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etmə prinsipinə əməl etmədiyi və müvafiq xalqa bu dövlətin idarəedilməsində iştiraketmə üçün imkan vermədiyi halda qoyula bilər ("islahedici sesessiya" (*remedial secession*).[50,51] Bizim fikrimizcə, bu müddəanın əsas məqsədi rasist rejimləri qurulmuş dövlətlərin (CAR, Cənubi Rodeziya) yaranması və ya fəaliyyəti ilə bağlı vəziyyətin dövlətlərin dünya birliyi tərəfindən tanınmaması idi. Məsələn, Rodeziya ilə bağlı BMT-nin qətnamələri 11 noyabr 1965-ci il birtərəflik müstəqillik bəyannaməsinin hüquqi qüvvəsini inkar edir və təşkilatın bütün üzv-dövlətlərini onu tanımamağa çağırır (bax BMT BA-nın 2024 (XX) və 2151 (XXI) və BMT TŞ-nın 216 (1965), 217 (1966) qətnamələrinə). M.Şou vurğulayır ki, müstəsna hallarda müstəqil dövlətdən ayrılmağın qanuniliyi çoxsaylı mübahisələr predmetidir. Eyni zamanda o qeyd edir ki, hətta bu məhdud təsdiqləmənin uğurlu tətbiqini nümayiş etdirən praktika mövcüd deyil.[52] S.V. Çerniçenko da analoji mövqe tutur.[53] Həqiqətən, 1970-ci il bəyannaməsinin bu müddəasının həyata keçirilməsinin heç bir mexanizmləri yoxdur. Bu problematika üzrə bərqərar olmuş *opinio juris* də mövcüd deyil.

Beləliklə, müasir beynəlxalq hüquq doktrinasında xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə hüququ sesessiyaya aparmır.

***"Kosovo probleminin tənzimlənməsinin beynəlxalq hüquqi xüsusiyyətləri və digər ərazi münaqişələrlə müqayisəsi"*** adlanan

---

[50] Tomuschat, C. Secession and self-determination // - Secession: International Law Perspectives. M. G. Kohen ed., - Cambridge University Press, - 2006. - p. 35

[51] Cassese, A. Self-Determination of Peoples A Legal Reappraisal / A. Cassese. - Cambridge University Press, - 1995. - p. 120

[52] Shaw, M.N. International law / M.N. Shaw. Sixth edition. Cambridge: Cambridge University Press, -2008. - p. 291

[53] Черниченко, С.В. Теория международного права. В 2-х томах. Том 2: Старые и новые теоретические проблемы. / С.В. Черниченко. - М: «НИМП», - 1999. - с. 189

***üçüncü yarımfəsli*** Kosovo ətrafında problematikanın beynəlxalq hüquqi aspektlərinin təhlilinə həsr edilib.

Kosovo diyarı tərəfindən öz müstəqilliyinin bəyan edilməsi və bir sıra dövlətlər tərəfindən tanınması dünyanın siyasi həyatında ən kəskin problemlərdən biridir. Belə bir sual yaranır ki, hüquqi baxımdan Kosovonu bir sıra dövlətlərin tanınması, bu qurumun beynəlxalq hüququn müstəqil subyektin olması faktının təsdiqlənməsi üçün kifayət edən əsas hesab etmək olar mı? Heç bir şübhə doğurmur ki, Kosovoda fövqəladə vəziyyət yaranmışdır. Belə ki, BMT TŞ-nın 23 sentyabr 1998-ci il tarixli 1199, 24 oktyabr 1998-ci il tarixli 1203, 14 may 1999-cu il tarixli 1239 nömrəli qətnamələrində Kosovoda və onun ətrafında olan humanitar faciədən danışılır. BMT İnsan Hüquqları Komissiyasının məlumatına görə insan hüquqlarının pozulması Kosovodan 1 mln.-dan çox insanların kütləvi şəkildə qaçmasına səbəb oldu. Kosovoda etnik təmizləmələr həqiqətən təhlükəli ölçülər aldı. Kosovoda BMT missiyasının məlumatına əsasən Kosovoda "Müttəfiq qüvvə" NATO əməliyyatının başa çatmasına qədər repressiyalar nəticəsində 10 min alban həlak olmuş və bir neçə min isə "itkin düşmüşdür". Yuqoslaviyanın keçmiş rəhbərliyinin qanunsuz hərəkətləri nəticəsində Kosovoda dünya dövlətləri birliyinin humanitar fəlakət kimi tanınmış fövqəladə vəziyyət yaranmışdır. BMT Nizamnaməsinin VII-ci fəslinin əsasında fəaliyyət göstərərək, BMT TŞ qərara aldı ki, BMT himayəsi altında beynəlxalq mülki iştirak, və zəruri heyət və təchizatla təhlükəsizlik üzrə iştirak təsis edilsin. YMR-nın belə iştiraklara razılıq vermişdir. Beləliklə, Kosovoda humanitar faciə baş vermiş və sülhə və beynəlxalq təhlükəsizliyə təhlükə yaradan vəziyyət yaranmışdır. Bununla yanaşı, hüquqi baxımdan Kosovonun statusunun tam müəyyən edilməsi problemini hazırki mərhələdə tamamilə həll edilmiş hesab etmək olmaz.

"***Beynəlxalq hüquqda dövlətlərin tanınması institutu" adlanan 4-cü fəslin 4-cü yarımfəslində*** beynəlxalq hüquq sistemində bu institutun xüsusiyyətləri tədqiq olunur. P.Malançuk vurğulayır ki, dövlətlərin və hökumətlərin tanınması beynəlxalq hüququn ən

mürəkkəb məsələlərindən biridir.[54] Dövlətlərin beynəlxalq hüquqi tanınması müəyyən hüquqi nəticələr yaradır. S.V. Çerniçenko qeyd edir ki: "Tanınma onun destinatoruna müvafiq keyfiyyət verir: dövlətə - beynəlxalq hüquqsubyektliyi verir".[55] Beynəlxalq hüquq doktrinasında dövlətlərin tanınmasının əsasən iki: deklarativ və konstitutiv nəzəriyyələri mövcüddur.

Sovet beynəlxalq hüquq doktrinasında deklarativ tanınma nəzəriyyəsi aparıcı mövqeyə malik idi (R.L.Bobrov, D.İ.Feldman, F.İ.Kojevnikov və b.) Bu isə onunla bağlı idi ki, dünya ideoloji amillərə görə iki: kapitalist və sosialist düşərgələrinə bölünmüşdür. Və tez-tez bu düşərgədən birinə mənsub olan dövlətlər digərsinə mənsub olan dövlətləri tanımırdı. Bu nəzəriyyənin tərəfdaşları qeyd edirlər ki, beynəlxalq hüququn digər subyektləri yeni dövlətlərə beynəlxalq hüquq subyekti olma qabiliyyəti keyfiyyətini verə bilməzlər. Qeyd etmək lazımdır ki, bir sıra Qərb hüquqşünasları, məsələn, Y.Brounli, V.Fişer, J. Brayerli, B.Çenq, Q.X.Briqqs, Ş.Russo, X.Valdok, Q.Rolin-Jakmen, C.Kuns, J.Şarpantye, C.Krouford və b. da bu nəzəriyyənin tərəfdarları idilər. Düzdür, bununla bərabər onlar hüquqauyğun üsullarla yaranmış dövlətlərin tanınması müddəasına əsaslanırdılar. Bununla yanaşı, beynəlxalq hüququn Qərb doktrinasında konstitutiv tanınma nəzəriyyəsinin mövqeləri əvvəlcədən aparıcı yer tuturdu. Bu nəzəriyyə bütövlükdə D.Anzilotti və Q.Kelzen tərəfindən tərtib edilib. Q. Trippel, L. Oppenqeym, Q. Lauterpaxt, M.Bastid, K.Ştrupp, S.Patel, Xold Fernek, A.Rivye, P. Foşil, Ç.Xayd, D.Krouford, D.Salmon, R.Riç, D.Turk, K.Xilqruber və b. konstitutiv tanınma nəzəriyyəsinin tərəfdarıdılar. Bu nəzəriyyəyə əsasən dövlətin tanınması konstitutiv aktdır və dövlətin beynəlxalq hüquqqabiliyyətli olması bu aktdan asılıdır. Son illərdə konstitutiv nəzəriyyəsi tərəfdarları sayının artması müşahidə olunur. Qeyd etmək lazımdır ki, bu gün öz hərəkətləri ilə dövlətlərin ərazi bütövlüyünə və həmdə beynəlxalq və

---

[54] Malanczuk, P. Akehurst's modern introduction to international law. / P.Malanczuk. - Seventh revised edition. - New York, - 2002. - p. 89

[55] Международное право: Учебник. / Отв. ред. Ю.М. Колосов, В.И. Кузнецов. - М.: Международные отношения, -1999. - с. 65

regional təhlükəsizlik sisteminə real təhlükə yaradan müxtəlif oyuncaq qurumlar beynəlxalq tanınmağa çalışırlar. Məsələn, belə qurumlardan biri "DQR", Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın beynəlxalq tanınmış ərazilərində yaranmışdır.

Bizim fikrimizcə, deklarativ nəzəriyyənin ən zəif yeri beynəlxalq hüquq normalarına uyğun olmayan hallara, müstəqil dövlətlər statusuna iddia edən müxtəlif ərazi qurumlarının yaranmasına qarşı maneə yaradan səmərəli tədbirlərin görülməsini nəzərdə tutmamasıdır. Belə ki, bu nəzəriyyəyə uyğun olaraq, bu halda hər bir ərazi qurumu öz "müstəqilliyini" bəyan edərək, beynəlxalq hüququn subyektinə çevrilə bilər (məsələn, İŞİD). Konstitutiv nəzəriyyəsinin tənqidçiləri isə qeyd edirlər ki, bu nəzəriyyənin ən zəif yeri ondadır ki: əgər o bütün dövlətlər tərəfindən tanınmasa tanınan obyektin hüquqi statusu necədir; aydın deyil, belə tanıma neçə dövlət tərəfindən baş verməlidir;[56] aydın deyil, dövlət yanlız onu tanımış dövlətlər üçünmü movcüd olan sayılır? [57]

Bizim fikrimizcə, belə tənqid əhəmiyyətli dərəcədə öz aktuallığını itirmişdir. Birincisi, hər bir yeni dövlətin yaranması beynəlxalq hüquqda nəzərdə tutulan hüquqauyğun vasitələrlə həyata keçirilməlidir. İkincisi, II-ci Dünya müharibəsindən sonra yeni dövlətlərin real tanınması bütövlükdə BMT üzərində qapanır. BMT-də ümumi sülhün və təhlükəsizliyin dəstəklənməsinə görə xüsusi məsuliyyət daşıyan dünyanın aparıcı dövlətləri təmsil olunub. Qeyd etmək lazımdır ki, bir sıra hallarda dünya birliyi beynəlxalq hüquq normaları və prinsiplərin pozulması ilə yaranmış müəyyən ərazi qurumlarını müstəqil dövlət kimi tanımaqdan imtina edirdi (məsələn, Cənubi Rodeziya, CAR-ın yaratdığı Transkey, Boxuvotsvana, Venda, Qskey bandustanlarını). Bundan əlavə, dünya dövlətlləri birliyi beynəlxalq hüquq normaları və prinsiplərin pozulması ilə

[56] Цвицинская, Н. Эволюция института признания государства в международном праве // - Москва: История и современность, - 2014. № 2 (20), - с. 150-151

[57] Броунли Я. Международное право / Я. Броунли. В 2-х кн. Кн. 1. М.: Прогресс, - 1977. - с. 150

yaranmış ərazi qurumlarının ləğv edilməsinə yönəlmiş tədbirlər görmək hüququna malikdir. Məsələn, İŞİD ilə mübarizədə silahli qüvvələr daxil olmaqla, istənilən vasitələrin istifadə edilməsi tamamilə əsaslıdır. 1995-ci ilin avqustunda Xorvatiyanın ərazisində "Kraina dövləti" kimi özünü bəyan etmiş serb qurumu ləğv edilmişdir. Biafra, Katanqa, Tamil-İlam Kataloniya (İspaniya) və s. kimi iflasa uğramış sesessiya cəhdlərini də qeyd etmək olar.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, yanlız beynəlxalq hüquq normaları və prinsiplərinə müvafiq yaranmış ərazi qurumu müstəqil bir dövıət kimi beynəlxalq hüquqi tanınmaya iddia edə bilərlər.

**V fəsil "Dövlətlərin ərazi bütövlüyü çərçivəsində Ermənistan-Azərbaycan münasibətlərinin beynəlxalq hüquqi nizamlanması problemi"** adlanır və üç yarımfəsildən ibarətdir.

***"Ermənistanın Azərbaycana qarşı təcavüzü Ermənistan-Azərbaycan münaqişəsinin əsas səbəbi kimi"*** adlanan ***1-ci yarımfəsildə*** bu münaqişənin əsas səbəbi müəyyən edilir.

Bizim təsəvvürümüzə görə bu münaqişəsinin əsas səbəbi Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Ermənistanın Azərbaycana qarşı təcavüzünə dəlalət edən çoxlu sayda faktlar var. Bunlardan bəziləri aşağıdakılardır: 1. Ermənistan Respublikasının hərbi doktrinası qeyd edir ki: *"Ermənistan Respublikasının Dağlıq Qarabağ Respublikası xalqının və onun seçdiyi inkişaf yolunun zəmanətçisidir və onun təhlükəsizliyini təmin edir*". Belə növ "zəmanətlər" beynəlxalq hüquqa birbaşa ziddir. 2. Ermənistan Azərbaycan ərazisinə soxularaq onun 20 % ərazisini işğal etmiş və bu ərazilərdə Azərbaycan əhalisinə qarşı etnik təmizləmə aparmışdır. 3. 26 sentyabr 2015-ci ildə Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olmasını bəyan edən Ermənistanın keçmiş prezidenti S.Sarqsyan rəsmi olaraq bu dövlət tərəfindən Azərbaycanın bir hissəsinin ilhaq edilməsi faktını təsdiqlədi. Mahiyyətçə eyni çıxışla Ermənistanın hazırki baş naziri N. Paşinyan da çıxış etmişdir. 4. 1-5 aprel 2016-cı ildə və II Qarabağ müharibəsində Azərbaycanın işğal olunmuş ərazilərində baş vermiş hərbi əməliyyatlarda həlak olmuş erməni hərbçilərin siyahısından görünür ki, onların mütləq

əksəriyyəti Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularıdır. 5. Ermənistan silahlı qüvvələri tərəfindən həmçinin Azərbaycanın Qazax rayonunda olan Yuxarı Əskipara, Aşağı Əskipara, Baqanis-Ayrum, Barxudarlı kəndələri, və həmdə Naxçıvanın Sədərək rayonununda olan Kərki kəndi işğal olunmuşdur. Azərbaycan əhalisi qətlə yetirilmiş və ya doğma yerlərindən qovulmuşdur. Bütün bu kəndlərin keçmiş Dağlıq Qarabağa heç bir aidiyyəti yoxdur və onlar keçmiş Dağlıq Qarabağdan və onunla həmsərhəd olan işğal olunmuş Azərbaycan ərazilərindən uzaqda yerləşirlər. 6. Azərbaycan torpaqlarının işğalı faktı həm birbaşa, həm də dolayısı ilə İnsan hüquqları üzrə Avropa Məhkəməsinin məhkəmə praktikasında da əks olunub (16 iyun 2015-ci il "Çıraqov və digərləri Ermənistana qarşı" iş üzrə qərar, 11 oktyabr 2007-ci il "Zalyan, Sarqsyan və Serobyan Ermənistana qarşı" iş üzrə qərar və d.) və s. 7. 44 günlük II Qarabağ müharibəsinin nəticələri üzrə Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanmış Bəyanatda Ermənistan öz silahlı qüvvələrinin bütün işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılması üzrə üzərinə öhdəlik götürmüş və Ağdam, Kəlbəcər və Laçın rayonlarını azad etmişdir və s.

Ermənistanın Azərbaycana qarşı təcavüz aktı həmdə hüquqi və politoloji ədəbiyyatda da (D. Linç, A.A.Merejko, X. Krüqer, S. Kornell və d.), və 1994-cü il mart və aprel ayları Human Rights Watch/Helsinki (HRW) təşkilatının məruzələrində də təsdiqlənir. HRW fikrinə əsasən erməni silahlı qüvvələrinin Azərbaycanda iştirakı Ermənistanı bu münaqişənin tərəflərinin biri etdi və bu müharibəni Ermənistan və Azərbaycan arasında beynəlxalq silahlı münaqişəyə çevirdi. D.Linç belə bir nəticəyə gəlir ki: "*Ermənistan qoşunlarının 1991-1994-ci il müharibəsində iştirak etməsi və indi də Dağlıq Qarabağ və Azərbaycan arasında cəbhə xəttinin tutması faktına baxmayaraq, Dağlıq Qarabağın müstəqilliyi yanlız erməni dövlətinin beynəlxalq təcavüzkar damğasından qaçmaq imkanı yaradır*".[58] X.Krüqer vurğulayır ki: "*Qarabağı və onu əhatə edən yeddi rayonu işğal edən hərbi orqan, Ermənistan və Qarabağ*

[58] Lynch, D. Managing separatist states:a Eurasian case study / D. Lynch. - Paris: Institute for security studies, Western European Union, - 2001. - p. 18

*ordularından ibarət olan vahid bir hərbi təşkilatdır, hətta onların mövcüd olan komanda strukturlarının hissələri sənədləşdirilməsə belə".*[59]

Belə bir nəticəyə gəlmək olar ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə soxulması, bunun nəticəsi olaraq Azərbaycan ərazisinin 20 % hərbi işğalı, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən qurulmuş əldəqayırma separatist rejiminə Ermənistanın hərtərəfli hərbi-siyasi, iqtisadi və maliyyə yardımın göstərilməsi və s. Ermənistanın Azərbaycana qarşı təcavüz faktının təkzibedilməz sübutudur. Ermənistanın bu əməlləri bütövlükdə həm BMT BM-nin qətnaməsində, həmçinin BCM-nin Roma statutunun icmalı üzrə birinci Konfrans tərəfindən qəbul olunan BCM-nin Nizamnaməsinə əlavə edilmiş müddəalarda əks olunmuş təcavüz anlayışı altına düşür.

***"Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində vurulmuş zərərin ödənilməsinin beynəlxalq hüquqi aspektləri"*** adlanan ***2-ci yarımfəsildə*** qeyd olunur ki, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Ermənistanın beynəlxalq hüquqi məsuliyyətini iki növə bölmək olar: 1. Ermənistanın dünya birliyi dövlətləri qarşısında məsuliyyəti. Təcavüz, soyqırım, etnik təmizləmə, aparteid, irqi ayrı-seçkilik, humanitar faciə və s. kimi əməllərin törədilməsi BMT Nizamnməsinin pozulmasına yönəlib və dünya birliyi dövlətləri tərəfindən beynəlxalq cinayətlər kimi tövsif edilir. Belə növ hərəkətlərin edilməməsi öhdəlikləri *erga omnes* öhdəlikləri xarakterini daşıyır. Ermənistanın dünya dövlətləri birliyi qarşısında məsuliyyəti Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması və bütün işğalci qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılması, təcavüzün nəticələrinin ləğv edilməsi, təcavüzkar müharibənin açılmasında və dinc əhaliyə qarşı Xocalı soyqırımının törədilməsində təqsirli şəxslərin cinayət məsuliyyətinə cəlb edlməsi zərurətini yaradır. 2. Təcavüz nəticəsində vurulmuş konkret maddi və mənəvi zərərə görə Ermənistanın Azərbaycan qarşısında məsuliyyəti. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Azərbaycan

[59] Крюгер, Х. Нагорно-Карабахский конфликт. Правовой анализ / Х. Крюгер; пер. с англ. Баку: Издательство «Bakı Universiteti», - 2012. - с. 150

torpağlarının 20% işğal edilmiş və 1 mln. insan qaçqın və köçkün olmuş, Azərbaycan əhalisinə böyük maddi və mənəvi zərər dəymiş, Azərbaycan ərazisinə, iqtisadiyyatına, ekologiyasına, bitki və heyvanat aləminə böyük iqtisadi zərər vurulmuşdur. Ermənistanın təcavüz nəticəsində Azərbaycana vurduğu konkret maddi və mənəvi zərərə görə məsuliyyəti belə zərərin tam həcmdə ödənilməsi zərurətini yaradır. Bir sıra mənbələrdə (məsələn, İƏT-in sənədlərində) vurulmuş zərərin məbləği 60 mlrd. ABŞ dollar civarında dəyərləndirilir. Lakin, fikrimcə, vurulmuş zərərin məbləği daha çoxdur. Birincisi, dünyada inflyasiya prosesləri nəzərə alınmaqla vurulmuş zərərin bu günə yenidən hesablanması zəruridir. İkincisi, Azərbaycanın həm Ermənistan təcavüzü nəticəsində işğal edilmiş ərazidə, həmdə Ermənistanla həmsərhəd olan ərazilərində iqtisadi fəaliyyət nəticəsində əldə edə bilən əldən qaçırılmış mənfəəti də nəzərə almaq lazımdır. Üçüncüsü, Ermənistan təcavüzü nəticəsində qaçqın və köçkün olmuş 1 mln.-dan çox insanın maddi təminatı və yerləşdirilməsi ilə bağlı xərcləri də nəzərə almaq lazımdır. Bu və digər halların nəzərə alınması ilə, fikrimcə, Azərbaycana vurulmuş ümumi zərərin məbləği 400 mlrd. ABŞ dollarından artıqdır və, təbii ki, bu rəqəm artır.

***"Ermənistanın təcavüzünə qarşı Azərbaycan Respublikasının özünümüdafiə hüququ"*** adlanan ***V fəslin 3-cü yarımfəslində*** Azərbaycan tərəfindən özünümüdafiə hüququ istifadəsinin əsasları və şərtləri tədqiq edilir. BMT Nizamnaməsinin 51-ci m. özünümüdafiə hüququnun həyata keçirilməsinin konkret şərtini müəyyən edir. Belə şərt kimi hər-hansı bir dövlətə silahlı hücum faktı çıxış edir. Lakin hər bir gücdən qanunsuz istifadə hələ silahlı hücum demək deyil. M.Bote qeyd etdiyi kimi: "*Silahlı hücum yanlız silahlı güvvədən müəyyən intensivlik dərəcəsində istifadə edildiyi halda baş verir*".[60] Buna görə sərhəd hadisələri və toqquşmaları silahlı hücum kimi tövsif edilə bilməzlər. Yanlız müəyyən intensivlik dərəcəsi olan silahlı hücum özünümadafiə hüququnun yaranması üçün

---

[60] Международное право / Вольфганг Граф Витцум и др., пер. с нем. М.: Инфотропик Медиа, - 2011. - с. 830

hüquqauyğun əsas yaradır. BMT TŞ da belə mövqe tutur.[61] BMT BM-nin 1974-cü il"Təcavüzün tərifi" adlı qətnaməsində hərbi təcavüzü və silahlı hücumu səciyyələndirən əlamətlər, mahiyyətcə, eynidir. Lakin bu anlayışlar arasında fərqlər də mövcüddur. Belə ki, silahlı hücumun baş verməsini belə hücumun qurbanı olmuş dövlət təsdiqləyir. Silahlı hücum faktı hücuma məruz qalmış dövlətə özünümüdafiə hüququ üçün əsas verir, təcavüz aktının törədilməsi isə BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş tədbirlərin tətbiqi üçün əsasdır. Özünümüdafiə hüququnu yaradan Ermənistanın Azərbaycana silahlı hücumu böyük ciddilik dərəcəsinə malikdir. BMT TŞ-nın 822, 853,874 və 884 nömrəli qətnamələri buna dəlalət edir. Hücuma məruz qalmış dövlət silahlı hücum faktının ilkin təsdiqlənməsi hüququna malikdir. Bununla yanaşı, özünümüdafiə hüququnun həyata keçirilməsinin başlanğıc anını dövlətin özü müəyyən edir. Zərurilik və mütənasiblik kimi ünsurlar özünümüdafiə hüququnun vacib ünsurlarıdır. Zərurilik meyarına dair qeyd etmək lazımdır ki, bu münaqişənin dinc danışıqlar yolu ilə ədalətli tənzimlənməsinə nail olunmaq ümidi qaldığına görə gücdən istifadə edilməsi zəruri hesab edilməməlidir. Lakin bu danışıqlar səmərə vermədiyi halda, davam edən işğal şəraitində, "digər heç bir real alternativ olmadığında" Azərbaycan Respublikası özünümüdafiəetmə hüququna əl atmağa tam hüquqa malikdir. Və o bu hüquqdan istifadə etmişdir. Mütənasiblik meyarı isə həm Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzün, həmdə onun nəticələrinin ləğv edilməsi zərurətindən ibarətdir. Dövlətin özünümüdafiə hüququnun qüvvədə olma dövrü silahlı hücum və onun nəticələri ilə müəyyən edilir. N.Ronzitinin vurğuladığı kimi: "*Hücum davam edənə qədər zərərçəkmiş dövlət reaksiya göstərmək hüququna malikdir*".[62]

---

[61] Military and Paramilitary Activities in and against Nicaragua (Nicaragua v. United States of America). Merits, Judgment // I.C.J. Reports 1986, p. 14.; Oil Platforms (Islamic Republic of Iran v. United States of America), Judgment // I. C. J. Reports 2003, p. 161

[62] Ronzitti, N. The Expanding Law of Self-Defence // - Journal of Conflict & Security Law, - 2006. V. 11, Issue 3, - p. 352

Beləliklə belə bir nəticəyə gəlmək olar ki: 1. Ermənistan Respublikası Azərbaycan Respublikasına silahlı hücum edib. 2. Ermənistanın Azərbaycana silahlı hücumu böyük ciddilik dərəcəsinə malikdir. 3. Ermənistanın Azərbaycana silahlı hücumu BMT Nizamnaməsinin 51-ci m. əsasən Azərbaycan Respublikasının özünümüdafiə hüququnu yaratmışdır. 4. Hücuma məruz qalmış tərəf kimi, Azərbaycan Respublikası Ermənistan tərəfindən silahlı hücum faktının ilkin təsdiq etməsi və özünümüdafiə hüququnun başlanması anını özü müəyyən etmək hüququna malikdir.

**VI fəsil "Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair beynəlxalq təşkilatların qərarlarının beynəlxalq hüquqi aspektləri"** adlanır və beş yarımfəsildən ibarətdir. ***1-ci yarımfəsil "Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair BMT qərarlarının beynəlxalq hüquqi aspektləri"*** adlanır.

Dünya birliyinin aparıcı dövlətlərinin mövqeləri ilə yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi prosesinə əhəmiyyətli dərəcədə təsir göstərən vacib amillərdən biri də bu münaqişəyə aid nüfuzlu beynəlxalq təşkilatların mövqeləridir. Bu, ilk növbədə BMT-yə aiddir. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair BMT TŞ 30 aprel 1993-cü il 822, 29 iyul 1993-cü il 853, 14 oktyabr 1993-cü il 874 və 12 noyabr 1993-cü il 884 nömrəli 4 qətnamələr qəbul etmişdir. BMT BM də Ermənistan-Azərbaycan münaqişəsinə dair bir neçə qərarlar qəbul etmişdir (20 dekabr 1993-cü il, 7 sentyabr 2006-cı il, 14 mart 2008-ci il və s.). BMT TŞ və BM qətnamələrinin təhlili əsasında aşağıdakı nəticələrə gəlmək olar: 1) keçmiş Dağlıq Qarabağ Azərbaycanın bir regionu kimi tanınır. 2) Azərbaycan ərazilərinin işğal olunması faktı etiraf edilir. 3) Aparılmış etnik təmizləmə nəticəsində Azərbaycanlıların qovulmasından sonra keçmiş Dağlıq Qarabağ ərazisində qalmış əhaliyə təbiətdə mövcud olmayan "Dağlıq Qarabağ xalqı" kimi yox, "Azərbaycan regionunun Dağlıq Qarabağ erməniləri" kimi baxılır. 4) Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və həmdə ərazinin əldə

edilməsi üçün gücdən istifadə edilməsinin yolverilməzliyi təsdiqlənir; 5) Azərbaycan Respublikasının ərazilərinin işğalı pislənir; 6) Azərbaycanın işğal olunmuş bütün rayonlarından bütün işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur; 7) Azərbaycanın mülki əhalisinə hücümlar pislənir; 8) Azərbaycanın işğal olunmuş ərazilərindən qovulmuş əhalinin öz evlərinə qayıtmasına olan ayrılmaz hüququ təsdiqlənir və belə qayıdış üçün lazımi şəraitin, o cümlədən, münaqişədən zərər çəkmiş ərazilərin hərtərəfli reabilitasiyası daxil olmaqla, yaradılması zərurəti qeyd olunur; 9) xüsusilə qeyd olunur ki, Azərbaycan Respublikasının ərazilərinin işğal olunması nəticəsində yaranmış vəziyyətin qanuni olmasını heç bir dövlət tanımamalıdır və belə vəziyyətin saxlanılmasına kömək və ya yardım etlməməlidir.

"***Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair Qoşulmama Hərəkatının qərarlarının beynəlxalq hüquqi aspektləri***" adlanan ***VI fəslin 2-ci yarımfəslində*** bu münaqişəyə dair Qoşulmama Hərəkatının (QH) qərarlarının rolu və əhəmiyyəti tədqiq edilir. Aparılmış tədqiqat nəticəsində müəyyən olunur ki, QH sənədlərdə Ermənistan – Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin və bu müstəvidə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməsi çərçivəsində həllinin vacibliyi ifadə olunur, QH üzv dövlətləri tərəfindən gücdən istifadə etməklə Azərbaycanın ərazilərinin zəbt edilməsinin yolverilməzliyi qeyd edilir və həmçinin təsdiqlənir ki, heç bir üzv dövlət Azərbaycan ərazilərinin işğal edilməsinin qanuniliyini və Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən qurulmuş əldəqayırma rejimi tanımır, və Azərbaycan Respublikasının regionunda belə əldəqayırma qurum tərəfindən keçirilmiş belə adlanan "seçkiləri" qanunsuz hesab edir.

"***Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair İƏT qərarlarının beynəlxalq hüquqi aspektləri***" adlanan ***VI fəslin 3-cü yarımfəslində*** bu münaqişəyə dair İƏT-nın qərarlarının rolu və əhəmiyyəti tədqiq edilir. Ermənistan-Azərbaycan münaqişəsinə dair İƏT tərəfindən çoxsaylı qərarlar qəbul olunmuşdur. Belə qərarlar üç

qrupa sistemləşdirilir: "Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında; Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında; "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında".

Müəllif İƏT-nın qərarlarını xülasə edərək belə bir nəticəyə gəlir ki: 1) İKT Ermənistanın Azərbaycan torpaqlarının işğalı faktını etiraf edir, Azərbaycana qarşı Ermənistanın təcavüzünü qətiyyətlə pisləyir, belə təcavüzə son qoyulmasını və bununla yanaşı Ermənistan silahlı qüvvələrinin bütün işğal olunmuş Azərbaycan torpağlarından dərhal, tam və şərtsiz çıxarılmasını tələb edir; 2) İKT Ermənistanı təcavüzkar kimi tanıyaraq, BMT-nin TŞ-na müraciət edərək həm Azərbaycana qarşı təcavüzün baş verməsi faktının tanınmasına, və həmçinin, bu münaqişəyə dair özünün əvvəllər qəbul etdiyi qərarlarının təmin edilməsinə çağırmışdır; 3) İKT Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərdə Azərbaycan əhalisinə qarşı edilmiş hərəkətləri insanlıq əleyhinə törədilmiş cinayətlər kimi qiymətləndirir; 4) İKT bu münaqişənin ədalətli nizamlanmasının əsas prinsiplərini müəyyən edir. Bunlar dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin sarsılmazlığı prinsipləridir; 5) İKT Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın təbii resursların istismarına və həmdə İslam abidələri daxil olmaqla, Azərbaycanın mədəni və tarixi abidələrinin dağıdılması praktikasina son qoyulması tələb edir.

***VI fəslin 4-cü yarımfəsli "Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair Avropa təşkilatlarının qərarlarının beynəlxalq hüquqi aspektləri"*** adlanır və burada müxtəlif Avropa regional təşkilatları qərarlarının məzmunu tədqiq edilir.

Bu yarımfəsil üç yarımparaqrafdan ibarətdir. *6.4.1. yarımparaqrafda "Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair ATƏT qərarlarının hüquqi aspektləri"* araşdırılır. ATƏT sənədlərinin təhlili nəticəsində belə bir nəticəyə

gəlmək olar ki, bu sənədlərdə keçmiş Dağlıq Qarabağın Azərbaycan Respublikasının regionu olması faktı təsdiqlənir;

*6.4.2. yarımparaqrafda "Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair Avropa Şurasının qərarlarının hüquqi aspektləri"* araşdırılır (bax "Zakafkaziyada münaqişələr haqqında" 1119 nömrəli, AŞPA-nın "Onun həlli ilə ATƏT-in Minsk Konfransı məşğul olan Dağlıq Qarabağ regionu ətrafında münaqişəyə dair" 1416 nömrəli qətnamələrə və s.) Bu sənədlərdə Azərbaycan ərazisinin mühüm bir hissəsinin erməni quvvələri tərəfindən işğalı və həm də Ermənistan tərəfindən keçmiş Dağlıq Qarabağ regionunun ilhaq edilməsi faktı qeyd olunur. AŞPA Azərbaycanın ərazisini işğal edən dövlət kimi birbaşa Ermənistanı göstərdi, və, faktiki olaraq, bu ölkəni Azərbaycana qarşı təcavüzdə ittiham etdi. AŞPA 24 iyun 2008-ci il 1614 nömrəli və 25 iyun 2008-ci il 1619 nömrəli qətnamələrində də Azərbaycanın ərazi bütövlüyünü bir daha dəstəklədi. Həmçinin AŞPA 26 yanvar 2016-ci il tarixli 2085 nömrəli "Azərbaycanın sərhədyanı rayonları sakinlərinin sudan qəsdən məhrum edilməsi" adlı qətnaməsi Ermənistan silahlı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxarılmasına çağırır.

*6.4.3. yarımparaqrafda "Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə dair Avropa İttifaqının qərarlarının hüquqi aspektləri"* tədqiq edilir. Aİ keçmiş Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair bir neçə sənəd qəbul etmişdir (Aİ əsas orqanlarından biri Avropa Parlamentinin 20 may 2010-cu ildə 2216 nömrəli "Cənubi Qafqazda Avropa İttifaqı strateqiyasının tərtib edilməsi zəruriliyi haqqında" qətnaməsi, Avropa Parlamentinin 23 oktyabr 2013-ci il tarixli qərarının Azərbaycana həsr olunmuş bölməsində "Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi" hissəsi, və s.) Bu sənədlərin təhlilindən belə bir nəticəyə gəlmək olar ki, birincisi, Ermənistanın Azərbaycan torpağlarının işğalı faktı təsdiqlənir. İkincisi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxardılması tələb olunur. Üçüncüsü, mülkiyyət hüququ və şəxsi təhlükəsizlik hüququ daxil olmaqla öz hüquqlarından məhrum edilmiş, öz evlərini tərk etməyə

məcbur olmuş yüz minlərlə qaçqın və köçkünlərin olması faktı təsdiqlənir. Dördüncüsü, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zəruri hesab edilir.

***VI fəslin 5-ci yarımfəsli "Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair NATO qərarlarının hüquqi aspektləri*"** adlanır və burada bu münaqişəyə dair NATO qərarlarının rolu və əhəmiyyəti tədqiq edilir. NATO-nun Keçmiş Yuqoslaviyadakı, Əfqanıstandakı və İrakdakı əməliyyatları təsdiqlədilər ki, NATO dünyada mövcud olan hərbi-siyasi bloklar arasında ən effektivlisidir. NATO-nun sənədlərində Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə aid müddəalar əks olunub. 2006-cı ilin noyabrında Riqada keçirilmiş NATO-ya üzv olan ölkələrin dövlət və hökumət başçılarının summitində NATO belə səviyyədə ilk dəfə olaraq Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə öz dəstəyini göstərdi. NATO bu mövqesini 2008-ci il Buxarestə summitində də təsdiqlənmişdir. Qeyd etmək lazımdır ki, bu sənəddə çox vacib əlavə əks olunub. Onda Cənubi Qafqazda və Moldovada regional münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi prinsipləri müəyyən edilir. Bu Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi prinsipləridir. NATO-nun oxşar mövqesi NATO-nun Brüssel, Strasburq və Kell, Lisbon, Uels, Varşava, Brüssel və s. sammitlərində də təsdiqlənmişdir.

Beləliklə, NATO-nun sənədlərdə bu münaqişənin beynəlxalq hüquqi əsasları və prinsipləri müəyyən edilir. Bu Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi prinsipləridir.

Disserasiyanın **nəticə** hissəsində hazırki tədqiqatın aparılması nəticəsində əldə edilmiş əsas nəticələr ümumiləşdirilir və işin yekunları göstərilir. Cəmi dissertasiyada 23 nəticə göstərilir.

Dissertasiya tədqiqatının əsas müddəaları müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1.Проблема определения международно-правового статуса Косово и урегулирование армяно-азербайджанского, нагорно-карабахского конфликта // Azərbaycan Respublikasında dövlət və

hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 21-ci buraxılış./ Bakı: Adiloğlu, - 2008. - s. 539 – 551.
2.Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində İslam Konfransı Təşkilatının qərarlarının əhəmiyyəti //- Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2008, № 3, (15), s. 66 – 71.
3.Особенности международно-правового урегулирования косовской проблемы и региональные конфликты на постсоветском пространстве. (Сравнительно-правовой анализ) //- Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri, - 2008. № 4, - s. 94 – 102.
4.Косовская проблема и урегулирование армяно-азербайджанского, нагорно-карабахского конфликта / Международно-правовые аспекты //- Bakı: Dircəliş-XXI əsr, - 2008. №122-123, - s. 267–284.
5.Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində NATO qərarlarının rolu və əhəmiyyəti // - Bakı: Nəqliyyat hüququ, - 2009. - № 4, - s.140-147.
6.Соотношение принципов территориальной целостности и самоопределения народов в теории и практике международного права /Р.М.Караев. – Баку: Текнур, - 2009. - 304 с.
7.Тенденции развития института признания государств в теории и практике международного права // - Bakı: Bakı Dövlət Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, - 2009. - № 4, - s. 54 – 66.
8.Проблема соотношения и взаимосвязи принципов территориальной целостности государств и равноправия и самоопределения народов (наций) // - Bakı: Qanun, 2009. - № 3, - s.31-44.
9.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının rolu və əhəmiyyəti // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. / - Bakı, 2009. № 2,- s. 317 – 323.

10.Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində NATO sənədlərinin əhəmiyyəti // Diplomatiya və hüquq, 2009, № 3 – s. 1-10.
11.Эффективность принципа территориальной целостности государств в системе международно-правового регулрования // - Bakı: AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Elmi Əsərlər" jurnalı, -2009. № 1-2 (13), - s. 257-264.
12.НАТО и этнические конфликты на постсоветском пространстве (международно-правовые аспекты) // - Bakı: Dirçəliş-XXI əsr, 2009. № 139-140, - s. 144 – 150.
13. International legal aspects of the UN resolutions in the solution of Armenian-Azerbaijani Nagorno-Karabakh conflict // - Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010. № 2, - s. 66–70.
14.Консультативное заключение Международного Суда ООН по Косово и международное право // - Bakı: Bakı Dövlət Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, - 2010. № 3, - s. 64 – 76.
15.Функционирование международных судебных органов как одно из основных направлений повышения эффективности международно-правового регулирования //- Bakı: AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Elmi əsərlər" elmi-nəzəri jurnalı, - 2010. №1, - s. 295-300.
16.Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair Avropa Şurasının qərarlarının beynəlxalq hüquqi aspektləri // - Bakı: "Hüquqi dövlət və Qanun" jurnalı, - 2010. № 4, - s. 30 – 35.
17.Роль и значение решений организации ГУАМ в урегулировании нагорно-карабахского конфликта. (Международно-правовые аспекты) // - Bakı: Dirçəliş-XXI əsr, - 2010. № 145-146, - s.180-188.
18.Правовые аспекты решений Совета Европы в урегулировании армяно-азербайджанского, нагорно-карабахского конфликта // - Тбилиси: Право и политика, - 2010. № 13, - s. 15 – 18.
19.Beynəlxalq hüquq elminin problemləri // "Hüquq elmlərinin prioritet istiqamətləri və hüquqşünas alimlərin qarşısında duran

vəzifələr" mövzusunda elmi-praktik konfransın materialları, - Bakı: 2010, - s. 210 – 214.
20.Международно-правовые аспекты решений ООН в урегулировании армяно - азербайджанского, нагорно-карабахского конфликта // - Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri, - 2010. № 1, - s. 65 – 70.
21.Международно-правовые аспекты возмещения ущерба нанесенного агрессией Армении против Азербайджана // - Bakı: AMEA Xəbərlər. Tarix, Fəlsəfə, Hüquq seriyası, - 2011. № 1, -s. 335 – 349.
22.Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Avropa Birliyinin qərarlarının beynəlxalq hüquqi aspektləri // "Dirçəliş-XXI əsr" jurnalı, 2011, № 158-159, s. 186-195.
23.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ATƏT qərarlarının rolu və əhəmiyyəti və beynəlxalq hüquq // - Bakı: Hüquq düşüncəsi və elm, - 2011. Cild 2, nömrə 2, - s. 25 – 32.
24.Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ATƏT qərarlarının beynəlxalq – hüquqi aspektləri // Hüquq elminin müasir problemləri – I Respublika elmi konfransının materialları, -Bakı: "Təhsil", - 2011, - s. 59 – 64.
25.Ermənistanın təcavüzü nəticəsində Azərbaycana vurulmuş zərərin ödənilməsinin bəzi beynəlxalq – hüquqi məsələləri // "Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları" beynəlxalq konfransın materialları. I hissə. – Bakı: 2011, - s. 360 – 365.
26.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq / R.M. Garayev. – Bakı: Təknur, - 2012. - 344 s.
27.Понятие принципа территориальной целостности государств в доктрине международного права // Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20 illiyinə həsr olunmuş beynəlxalq elmi-nəzəri konfransın materialları, - Bakı: - 2012, - s. 171 – 177.
28.Dünya birliyi dövlətləri qarşısında Ermənistanın beynəlxalq-hüquqi məsuliyyəti // "Hüquq elminin müasir problemləri"

mövzusunda II Respublika elmi-nəzəri konfransın materialları, - Bakı: - 29-30 mart, - 2012, - s. 73 – 76.
29.Понятие принципа нерушимости границ государств в международном праве // - Bakı: AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Elmi əsərlər" jurnalı, - 2012. №1 (18), - s. 323 – 330.
30.Понятие принципа территориальной целостности государств в международном праве // III Respublika elmi-nəzəri konfransının materialları, - Bakı: 2013, - s. 93 – 97.
31.Некоторые теоретические и практические аспекты урегулирования региональных конфликтов на постсоветском пространстве // Çoxsaylı beynəlxalq hüquq, Bakı: "Elm və təhsil", - 2014, - s. 241– 254.
32.Правовое содержание и основные элементы принципа территориальной целостности государств (на примере нагорно-карабахского конфликта) // - Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri, - 2014. № 1 (37), - s. 64 – 73.
33.Аннексия Крыма и международное право // Hüquq elminin müasir problemləri Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları mövzusunda IV Respublika elmi-nəzəri konfransın materialları, - Bakı: 6-7may, - 2014, - s. 72 – 81.
34.Сепаратистские образования как вызов международному праву // "Azərbaycanda hüquqi dövlət quruculuğunun aktual problemləri: fəlsəfi, sosioloji və hüquqi təhlil və proqnozlaşdırma" II Beynəlxalq elmi konfransın materialları, - Bakı: 23-24 oktyabr, - 2014, - s. 209 – 212.
35.Правовое содержание и основные элементы принципа нерушимости границ государств // Müasir dövrdə beynəlxalq münasibətlər və beynəlxalq hüququn bəzi problemləri (məqalələr toplusu) / - Bakı: Elm, - 2014, - s. 173 – 191.
36.Soyqırım cinayətləri ilə mübarizədə beynəlxalq təcrubə /beynəlxalq hüquqi aspektlər // Hüquq elminin müasir problemləri Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları mövzusunda V Respublika elmi-

nəzəri konfransın materialları, - Bakı: 7-8 may, - 2015, - s. 114 – 119.
37.Принцип равноправия и самоопределения народов в международном праве // “Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları” mövzusunda VI Respublika elmi-nəzəri konfransın materialları, Bakı: 5 - 6 may, - 2016, - s. 135-138.
38.Региональные конфликты на постсоветском пространстве. (Международно-правовой анализ) // КИЇВ: ПРАВО. UA. LAW, - 2016. № 1, - с. 151-159.
39.Аннексия Крыма как нарушение принципа территориальной целостности Украины // - КИЇВ: Часопис Киівського университету права, - 2016. № 1, - с. 346 – 352.
40.Региональные конфликты на постсоветском пространстве. (Международно-правовой анализ) // - КИЇВ:Український часопис міжнародного права, - 2016. №1, - с. 31- 37.
41.Институт признания государств в международном праве и самопровозглашенные территориальные образования //-Москва: Журнал российского права, - 2016. № 9, - с. 121 – 129.
42.Правомерные способы возникновения новых государств в современном международном праве // - Москва: Современное право, - 2016. № 10, - с. 129 – 136.
43.Право на самооборону Азербайджанской Республики против Армении // Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri, - 2016. № 2 (46), - s. 15-25.
44.Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil dövlət kimi tanınması // __“Azərbaycanda hüquq elminin müasir inkişaf istiqamətləri və tendensiyaları” mövzusunda beynəlxalq-elmi praktiki konfransın Materialları, Bakı, 02-03. 10. 2018, s. 69 – 74
45.О соотношении принципов территориальной целостности государств и равноправия и самоопределения народов // Журнал российского права. 2020. № 10. - с. 154—167.
46.Международно-правовые аспекты и принципы урегулирования армяно-азербайджанского нагорно-карабахского конфликта. Баку, 2020, 428 с.

47. Агрессия Армении против Азербайджана как основная причина армяно-азербайджанского нагорно-карабахского конфликта // “Dövlət suverenliyi və ərazi bütövlüyünün beynəlxalq-hüquqi təminat mexanizmləri” mövzusunda beynəlxalq elmi konfransın materialları. –Bakı, 2021.- с. 106-132.

Dissertasiyanın müdafiəsi "04" aprel 2023-cü il tarixində saat 11:00 Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən BED 2.45 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1438, Bakı ş., Mərdəkan pr. 30, III korpus, auditoriya .

Dissertasiya ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "03" mart. 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01. 03. 2023

Kağızın formatı: A5 (210 x 148 mm)

Həcm: 93.183

Tiraj: 100